www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 12 iyun 2019-cu il Çərşənbə № 125 (7295) Qiyməti 60 qəpik

**Xəbər**

## Vergilər Nazirliyində "təmizləmə" - 24 nəfərin işi prokurorluqda

yazısı səh.14-də

**Gündəm**

### Paşinyan Qarabağ klanına qarşı "sanksiya" qərarı verdi-separatçıların pulu kəsilir



Ermənistan klanı işğal zonasındakı qondarma quruma rəhbərliyi də ələ keçirmək istəyir; **politoloq:** "Güc tətbiq etməyin vaxtı çatıb"

yazısı səh.5-də

### Heydər Əliyev Elçibəy iqtidarındakıları ölümdən necə qurtarıb...

yazısı səh.5-də

### Həbsdə olan AXH üzvləri barədə son xəbərlər

yazısı səh.4-də

### Neft bazarında qeyri-sabitlik - Azərbaycan üçün risk varmı?

yazısı səh.6-da

### Müxalifətin "virtual mübarizəsi"-hər şey sosial şəbəkələrdə..

yazısı səh.7-də

### Dondurma təhlükəsi - necə qorunaq?

yazısı səh.14-də

### 20 iyula yürüş-mitinq təyin edildi

yazısı səh.7-də

### İstefaya göndərilən prezidentdən "məni öldürmək istəyirlər" iddiası

yazısı səh.12-də

### Vaşinqtondan Ankaraya tələb: Ya S-400, ya da F-35

yazısı səh.13-də

### Dünyanı şoka salan inanclar

yazısı səh.15-də

### Qarabağda "sürünən müharibə" - düşmənə Naxçıvan xəbərdarlığı

yazısı səh.11-də

# ANKARA VƏ MOSKVANIN QƏLİZ GEOSİYASİ OYUNU: ERMƏNİSTANI GÖZLƏYƏN TALE

**Rusiyalı tanınmış hərbi ekspert işğalçı ölkənin hərbi gücünü sıfırladı və erməniləri qorxutdu:** "Türkiyənin altında qalarsınız, Azərbaycan isə..."; işğalçıya qarşı Bakı-Ankara və Bakı-Ankara-Tiflis hərbi əməkdaşlıq formatları güclənir...




yazısı səh.8-də

# Fazil Məmmədovun velosiped biznesi batır

"İsma Bikes"in mağazaları fəaliyyətini dayandırıb, istehsal isə...

yazısı səh.10-da



Novella Cəfəroğlu

### Hüquq müdafiəçisi amnistiya aktının qəbulunu istəyir

yazısı səh.3-də



### Ölkədəki pirlərin sirrini bilən Həmid Herisçi danışdı

yazısı səh.3-də



Qasım-Jomart Tokayev

### Qazaxıstanın yeni prezidentinin Ermənistanla bağlı mövqeyi Bakıda etiraz doğurdu

yazısı səh.9-da

YENİ MÜSAVAT
N 125 (7295) 12 iyun 2019



## Məktəblərin qazlaşması üçün 5,7 milyon manat ayrıldı

**Prezident İlham Əliyev təhsil müəssisələrinin qazlaşdırılması haqqında sərəncam imzalayıb. Sərəncamla təhsil müəssisələrinin qazlaşdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.67-ci bəndində göstərilmiş məbləğin 5,7 milyon manatı Təhsil Nazirliyinə ayrılıb.**

## Bakıda daha bir metro stansiyası istifadəyə veriləcək

**""Bakı Metropoliteni"nin "Bənövşəyi xətt" üzrə tikilməkdə olan, şərti olaraq "B3" adlandırılan stansiyasının tikintisinin 2020-ci ildə başa çatdırılması nəzərdə tutulur".**

Bu barədə "Bakı Metropoliteni" QSC-nin sədr müavini Hidayət Məmmədov məlumat verib.

H.Məmmədovun sözlərinə görə, hazırda həmin ərazidə təmir-tikinti işləri davam etdirilir.

"B3" metro stansiyası paytaxtın Cəlil Məmmədquluzadə küçəsində, Hərbi hospitalın yanında inşa edilir.

Qeyd edək ki, "Bakı Metropoliteni"nin hazırda 25 stansiyası, 1 elektrik deposu və 36,6 kilometr uzunluğunda 3 xətti var. "Bakı Metropoliteni" Xətlərinin Konseptual İnkişaf Sxeminə əsasən, gələcəkdə metropolitenin ümumi şəbəkəsi 3 mövcud - Yaşıl, Qırmızı və Bənövşəyi, həmçinin 2 əlavə yeni xətt - Mavi və Sarı xətlər olmaqla 5 xətdən, 76 stansiyadan, 6 elektrik deposundan və 119,1 kilometr metro xəttindən ibarət olacaq. Perspektivdə 51 yeni stansiyanın inşa edilməsi və 84,3 kilometr uzunluğunda metro xəttinin çəkilməsi nəzərdə tutulub.

## Gəncədə azyaşlı övladını döyən valideyn həbs edildi

**Gəncə şəhər sakini, 2005-ci il təvəllüdlü Oqtay Nəbiyevin (ad, soyad şərtidir) atası tərəfindən döyülməsi barədə Daxili İşlər Nazirliyinin "102" xidmətinə daxil olmuş məlumat əsasında Gəncə şəhər Nizami Rayon Polis İdarəsində aparılmış ilkin araşdırma zamanı dərhal hadisə yerinə baxış keçirilib, hadisənin şahidlərinin izahatları alınıb və digər zəruri prosessual hərəkətlər həyata keçirilib.**

Gəncə Şəhər Prokurorluğundan verilən məlumata görə, fakta görə Gəncə Şəhər Baş Polis İdarəsinin İstintaq və Təhqiqat İdarəsində Cinayət Məcəlləsinin 128-ci (qəsdən sağlamlığa yüngül zərər vurma) maddəsi ilə cinayət işi başlanılıb, müvafiq ekspertizalar təyin edilib.

Cinayətin İlham Məmmədov tərəfindən törədilməsinə əsaslı şübhələr müəyyən edildiyindən, o, tutularaq istintaqa cəlb edilib. Hazırda iş üzrə istintaq tədbirləri davam etdirilir.

## Bakıda 3 nəfəri gün vurub

**Bakı şəhərində 3 nəfəri gün vurub. Bu barədə APA-ya Bakı şəhəri Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının (BTTTYS) baş həkimi Rauf Nağıyev məlumat verib.**

Onun sözlərinə görə, günvurma ilə bağlı təcili yardıma 3 müraciət daxil olub.

R. Nağıyev qeyd edib ki, onlardan 2 nəfəri hospitalizasiya olunub.

## Lənkəranda iki uşaq itkin düşüb

**Lənkəran rayonunda iki uşaq itkin düşüb. APA-nın xəbərinə görə, 2006-cı il təvəllüdlü Şahbazov Əli Qədir oğlu və onun bibisi oğlu, 2007-ci il təvəllüdlü Tahirov Tahir Malik oğlu Lənkəran şəhəri Daştatük kəndindən çıxaraq bir daha geri qayıtmayıblar.**

Hər iki şəxsin valideynləri Lənkəran Şəhər Polis Şöbəsinə müraciət edib.

Uşaqların axtarışı davam edir.

Elan

**Bakı şəhəri Binəqədi rayonu, keçid 1410, 6 mkr-n, ev 15/2, m.89 ünvanında qeydiyyatda olan borclu, "Araz İstilik Servis Xidmətləri" MMC-nin (VÖEN 1000582291) müflis elan edilməklə ödəmə qabiliyyəti olmayan hesab edilməsi və iflası haqqında işin məhkəmə baxışı 21.06.2019-cu il tarixdə, saat 15:10-da 1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsində keçiriləcəkdir (ünvan: Bakı şəhəri, N.Vəzirov küçəsi 56).**

# Azərbaycan Avroliqanın finalından nə qədər qazanıb?

**Dünyada böyük nüfuza sahib futbol turnirlərindən olan UEFA Avropa liqasının 2019-cu il 29 may tarixində Bakı şəhərində keçirilən final oyunu nəticəsində Azərbaycana birbaşa nağd şəkildə təxminən 175 milyon manat vəsait daxil olub, ümumilikdə isə 680 milyon manatlıq iqtisadi qazanc əldə edilib.**




APA-nın məlumatına görə, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin hesablamalarına əsasən, bu göstəricilər beynəlxalq kontekstdə media üzərindən əldə edilən dəyər, turistlərin xərcləmələri, çarter reyslərlə təyyarə parkına eniş edən təyyarələrə göstərilən xidmətdən əldə edilən gəlir, oyun ilə əlaqədar UEFA tərəfindən çəkilən xərclər və digər göstəricilər əsasında müəyyənləşdirilib.

Rəsmi göstəricilərə əsasən, oyunu 300 milyona yaxın insan televiziya və internet üzərindən canlı izləyib. Mütəxəssislər hesab edir ki, beynəlxalq brendinq üzrə adambaşına düşən ortalama xərclər nəzərə alınsa, 300 milyona yaxın izləyici kütləsinə ölkəmizin media vasitəsilə tanıdılması üçün 505 milyon manatlıq vəsait ayrılmalı idi. Beynəlxalq turnirin Bakıda keçirilməsi eyni məbləğdə marketinq dəyəri yaradaraq, ölkəmizi yüz milyonlarla insana daha da yaxından tanıdıb.

Gənclər və İdman Nazirliyi və AFFA-nın məlumatlarına görə, final oyunu ilə bağlı ölkəyə gələn xarici turistlərin sayı 37,4 min nəfər olub. Onların hesabına ölkəmizə 115 milyon manatlıq nağd vəsait daxil olub. İqtisadi dəyərin 1.25 milyon manatdan çoxu Avroliqanın final oyununun keçirilməsi üçün cəlb olunan işçilərin əmək haqları hesabına yaranıb.

AZAL-dan daxil olan məlumatlarda isə 108 çarter reysi üçün alınan xidmət haqqının 687 min manatdan çox olduğu əksini tapıb.

## Britaniyada 10 nəfər baş nazir olmaq istəyir

**Böyük Britaniyada hakim Konservativ Partiyanın rəhbəri və ölkənin baş naziri vəzifəsi üçün 10 namizəd mübarizə aparacaq.**

Trend-in verdiyi məlumata görə, baş nazir olmaq üçün Boris Conson, Ceremi Hant, Rori Stüart, Mett Henkok, Ester Makvey, Dominik Raab, Andrea Lidsom, Maykl Qouv, Sacid Cavid və Mark Harper öz namizədliklərini irəli sürüblər.

Bukmekerlər və siyasətçilərin proqnozlarına görə, B.Conson, C.Hant, D.Raab və M.Qouv qalibiyyətə daha yaxındırlar.



## AZAL Bakıdan Dehliyə birbaşa uçuşlara başlayır

**"Azərbaycan Hava Yolları" QSC (AZAL) bu ilin 25 iyun tarixindən etibarən Bakıdan Hindistanın ən böyük şəhərlərindən biri - Dehliyə müntəzəm və çarter reysləri həyata keçirəcək.**

QSC-dən verilən məlumata görə, AZAL-ın reysləri həftədə bir dəfə - çərşənbə axşamı günləri ekonom və biznes sinif konfiqurasiyalı "Boeing-757" təyyarələri ilə həyata keçiriləcək. Cari ilin payızından etibarən uçuşların sayı həftədə iki dəfəyə kimi artırılacaq.

Uçuşlar Heydər Əliyev Beynəlxalq Aeroportu Terminal 1-dən həyata keçiriləcək.



## Həcc ziyarətinə getmək üçün 1090 nəfər müraciət edib

**Bu il Azərbaycandan Həcc ziyarətinə getmək üçün 1090 nəfər müraciət edib.**

Bu barədə Qafqaz Müsəlmanları İdarəsi (QMİ) məlumat verib.

Qeyd olunub ki, hazırda vakant yerlər var və sənəd qəbulu davam edir.

Həcc ziyarətinə getmək üçün sənədlərini təqdim edənlərdən 60-a yaxını təkrar ziyarətə getmək istəyənlərdir.

Qeyd edək ki, bu il üçün Azərbaycandan Həcc ziyarətinə getmək üçün 1400 (ötən il 1440) nəfərlik kvota ayrılıb. Bu il otellər də fərq olacaq. Səudiyyə Ərəbistanındakı iqtisadi durumla əlaqəli qiymət fərqlidir. Qiymətlərdə 75 dollar artım var. Yəni bu il Həcc ziyarətinin qiyməti 4225 ABŞ dolları (ötən il 4150 dollar) təşkil edir.

Avqustun 1-dən 6-na qədər gediş, avqustun 21-dən 25-nə qədər isə Azərbaycana dönüş olacaq. Zəvvarlar üçün AZAL milli aviaşirkətinin 6 təyyarəsi ayrılıb. Plana əsasən, gediş üçün gün ərzində 2-3, dönüş üçün isə 2 reys olacaq.




## Prokuror beşqat dünya çempionuna 8 il cəza istəyib

**Bakı Ağır Cinayətlər Məhkəməsində "Neftçi" İdman Klubunun kikboksinq bölməsinin rəhbəri, "Xocalı" İdman Klubunun prezidenti, kikboksinq üzrə beşqat dünya çempionu, Avropa kəmərinin sahibi Ehram Məcidovun cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirilib.**

Virtualaz.org-un xəbərinə görə, prosesdə dövlət ittihamçısı çıxış edərək E.Məcidovun 8 il müddətinə azadlıqdan məhrum edilməsini istəyib. Zərərçəkmiş şəxsin vəkili Ceyhun Yusifov prokurorun az cəza istədiyini deyərək etiraz edib.

Çıxış zamanı təqsirləndirilən şəxslə vəkil arasında mübahisə yaranıb, hakim tərəflərə xəbərdarlıq edib.

Zərərçəkmişin digər vəkili də cəzanı yüngül hesab etdiyini deyərək daha ağır cəza verilməsini istəyib.

Müdafiə tərəfinin vəkilləri çıxış üçün məhkəmədən vaxt istəyiblər.

Məhkəmə prosesi iyunun 18-də davam edəcək.

Prosesdən sonra "Xocalı" İdman Klubunun üzvləri məhkəmənin qarşısında toplaşaraq Ehram Məcidova azadlıq tələb ediblər.

Qeyd edək ki, Ehram Məcidov qayınatasını - 1953-cü il təvəllüdlü Bəhruz Dilbazini döyməkdə ittiham edilir.

Ona qarşı Cinayət Məcəlləsinin 126.2.3-cü (xüsusi amansızlıqla, zərərçəkmiş şəxsə ağır iztirablar verməklə və ya sifarişlə, habelə təqsirkar üçün aşkar surətdə köməksiz vəziyyətdə olan şəxsə qarşı törədildikdə), 126.2.4-cü (qəsdən sağlamlığa ağır zərər vurma; ümumi təhlükəli üsulla, xuliqanlıq niyyətilə törədildikdə) və 228-ci (soyuq silah gəzdirmə) maddələri ilə ittiham irəli sürülüb.

## Bu gün hava necə olacaq?

**İyunun 12-də Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq, yağmursuz keçəcək. Səhər bəzi yerlərdə zəif duman olacaq. Mülayim cənub küləyi əsəcək. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən APA-ya bildirilib ki, havanın temperaturu Abşeron yarımadasında gecə 20-23, gündüz 30-34, Bakıda gecə 21-23, gündüz 32-34 dərəcə isti təşkil edəcək.**

Atmosfer təzyiqi norma daxilində 758 mm civə sütunu, nisbi rütubət gecə 60-70, gündüz 35-40 faiz olacaq.

## 16 çimərlikdə təcili tibbi yardım briqadaları olacaq

**"İyunun 15-dən etibarən çimərlik mövsümü ilə əlaqədar təcili tibbi yardım briqadaları Bakının 16 çimərliyində vətəndaşlara xidmət göstərəcək".**

Bunu APA-ya açıqlamasında Bakı Şəhəri Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının (BTTTYS) baş həkimi Rauf Nağıyev deyib.

O bildirib ki, bununla bağlı müvafiq əmr imzalanıb.

Baş həkim qeyd edib ki, təcili tibbi yardım briqadaları saat 09:00-dan 20:00-a qədər çimərliklərdə növbə çəkəcək.

Xatırladaq ki, Səhiyyə, Ekologiya və Təbii Sərvətlər nazirlikləri Türkan, Hövsan və Şıx çimərliklərinin istifadəyə yararsız olduğunu açıqlayıb.

# Ölkədəki pirlərin sirrini bilən Həmid Herisçi danışdı

**Vaxtilə ANS-də "Gizli Azərbaycan" proqramının müəllifi, konspiroloq-yazıçı Həmid Herisçi pirlərdən, ocaqlardan araşdırmalar təqdim edirdi.**

## "Beyləqandakı "Zəncirli pir"də qızcığaz qəfildən çox qədim dildə danışmağa başlayıb, Moskva alimləri gəlib öyrəniblər, bizsə belə möcüzələrə ironiyalarımızla məşhuruq"



Onunla söhbətimizi aktuallaşdıran bu günlərdə Goranboyda seyid Miribiş ağanın evinə toplaşanların onun papağını, qaloşunu başlarına sürtməsidir.

Həmin videokadrlar yayılıb, geniş müzakirə açıb, Qafqaz Müsəlmanları İdarəsi isə bu ritualı xürafat adlandırıb.

H.Herisçi "Yeni Müsavat"a müsahibəsində ilk pirlərin necə yaranması, mistikası, cazibə qüvvəsi, Azərbaycandakı pirlərin sirri haqda danışıb.

***- Həmid bəy, siz uzun müddət "Sirli Azərbaycan" layihəsində pirləri araşdırmısınız. Haradan gəlir bu pirlər?***

- Qədim Yunanıstanda adına asklapion deyilən ziyarətlər, şəfa ocaqları zənciri mövcuddur. Oradakı ayinlər aşağı-yuxarı bizim pir ocaqlarındakı mərasimlərlə eyniyyət təşkil edir - orada da qurban kəsdiyin heyvanın dərisinə bükülürdün, orada da pir yuxusuna dalırdın.

Yuxuda gördüklərini oradakı həkimlərə danışırdın. Bunun əsasında xəstəyə müalicə təyin edilirdi. Bu ocaqlarda zəhərli ilanlar da olurdu.

Bu zəhərdən də müalicə üçün istifadə edilirdi. Asklapionlarda adətən həmişə endemik-yəni nadir flora-fauna nümunələri də mövcuddur.

Bu sistem indiyədək qalmasa da, oxşar müalicə üsulları Azərbaycanda hələ də diridir. Niyə? Çünki Yunanıstandakı bu sistem görünür kənar təsirdən yaranmışdı. Azərbaycanda bu sistemin indiyədək varlığı göstərir ki, Yunanıstandan fərqli olaraq, bizdəki asklapionlar əsldi, həqiqidi, ilkindi. Belə olmazsa, həmin ocaqlar indiyədək qalmazdı. Yalançı pirlərin ömrü az olur.

***- Məsələn, hansı yalançı pir xatırlayırsınız?***

- İsmayıllıda yadıma gəlir, bir nəfər özü üçün yalançı pir qurmuşdu. Buna cavab olaraq ərazisində "yalanqoz" adlanan bitki yetişmişdi. Yalanqoz, zahirən qoza bənzəyir, ancaq qoz deyil. Yəni təbiət özü həmişə bu yalanlara cavab verir.

Bizim pirlərdə iki şəfaverici məlhəm olur, onlara tutiyə də deyirlər. Əl-kimya, mələk tükü deyilən kosmik mənşəli maddədən hazırlanır. Bu, səma içkisidir. Bir də var, tutiyələr. Sonuncular kosmik deyil, dünyəvidir, torpaq mənşəlidir. Avropa ölkələrində, Rusiyada bu cür "mələk tükləri" üstə alimlər indiyədək mübahisə aparırlar.

Yeni pirlərdəki arterfaktlar, içkilər, kəşfü-kəramətlər indi alimlər tərəfindən intensiv öyrənilir. Azərbaycanda bununla bağlı ciddi araşdırmalar sıfır səviyyəsindədir. Bizim əksər ocaqlarda gizli-açıq mumiyalar da mövcuddur. Belələrindən ən şəfalısı Mərəzədəki "Diri baba" ocağındaymış. Hər il bu mumiya saxlancdan çıxarılır, Novruz bayramı günü təzə ağ köynəyə bükülərmiş. Bu barədə Ada Olearusun səyahətnaməsində xeyli məlumatlar mövcuddur.

Ancaq 18-ci əsrin son rübündə Şıx Eyyub adlı bir başqa kəşfü-kəramət sahibi dedi ki, Diri baba mumiyası şeytandandır. İslama ziddi bu. Xalq da götürüb bu mumiyanı elə həmin ünvanda torpağa basdırdı.

Əksər Azərbaycan pirlərində bu cür mumiyalar var. Çoxusu gizlidir. Mücavirlər bu mumiyalarla təmasda olurlar. Qəribə mövzudur...

***- Qəribəliyi nədədir?***

- Məsələn, Cəlilabadın "Üç kimsənə" məzarlığında üç mükəmməl mumiya var. Gecələr öz-özünə gəzən Zərifə adlı bir xanım, onları yuxudaykən hələ 1959-cu ildə aşkarlayıb. İndi də bu mumiyalardan ayrılmayan həmin qadın o ünvanda yaşayır. Üzünü örtüb, hər adamla görüşmür...

Bir də bizim pirlərdə anabioz faktoru mövcuddur. Anabioz müvəqqəti ölüm deməkdir. Heyvanlarda, qurd-quşlarda rastlanan bu fenomen Naxçıvanın "Əshabü-Kəhv" ocağında mövcuddur. Bu şəxslərə, bu mumiyalara "Yedi kimsənə" də deyiblər.

Xristian ədəbiyyatında da bu 7 müqəddəs barədə xeyli əfsanələr rastlanılır. 28 iyul tarixində guya bu mumiyalar qəfil diriliblər. Quranın 18-ci Əl Kəhv surəsi də bu mövzu ilə əlaqədardı.

Alimlər bu anabioz faktorunu ciddi öyrənirlər. Oxşar diri mumiyalar Rusiyada, Çində, digər ölkələr də də mövcuddur.

***- Bəs bizdə necədir?***

- Bizdə müqəddəs labirintlər də var. Onlara el arasında keştəməz deyilir. Bu labirintləri keçib şəfa tapmaq mümkündür. Hacı İsmayıl Kürdəmirli misal üçün 19-cu əsrin ilk rübündə Həcc səfərinə gedir. Qayıdanbaş Bağdadda məşhur kəşfü-kəramət sahibi Şeyx Xaliddən dərs alır.

Onlar mükaşifələr edib, öncəgörmələrə çatırlar, zamanda səyahət edirlər -buna teyyül - ərz də deyilir. Öncəgörmələrində Şeyx Şamili, Cəmaləddini, Yaraqi kəndini görürlər. Sonra bu Hacı İsmayıl Kürdəmirli qayıdır Kürdəmirə. Dağıstanın bir də görür, həmin Yaraqi kəndindən bir elçi gəlib - adı da eşitdiyi kimi Cəmaləddindin, Xas Məmmədir və Şamildir.

Bu möcüzə Qafqaz qazavatının ilk epizodu sayılır. Şeyx Şamil özünün rus bioqrafına bu səhnəni danışıb. Etiraf edib ki, məhz bu möcüzə, qeybdən gəlmiş işarə kimi, onu mübarizəyə qaldırdı. Gördüyümüz kimi, pirlər, ocaqlar sadə yerlər deyillər. Razıyam ki, orada yalançılar da ola bilər. Pirlərdə "plasebo" effekti var. Bu, bomboş həbdir. Ancaq inanclı insanlar bu boş həbi içdikdə şəfa tapırlar. Siz deyən ünvanlarda bu affekt var yoxsa yoxdur, deyə bilmərəm. Burada səyyar araşdırmalar lazımdır.

***- Siz o vaxt Beyləqanda Cərcis peyğəmbər məqbərəsinə getmişdiniz, "zəncirli pir"i çəkmişdiniz. Onun sirri nə idi?***

- Zəncirli pirə gəldikdə, oradakı zəncir gümbəz tikintisi zamanı işlədilib. Dünyadakı əksər gümbəzləri, o cümlədən Aya Sofiyadakı gümbəz də oxşar zəncirlər vasitəsilə inşa edilib.

Əvvəl dörd divar hörülür, düz ortasına paya basdırılır. Payanın üstündəki zəncir sonra divarboyu yuxarı qaldırıldıqca əyri qövs təşkil edir.

Zəncirli pirdəki gümbəz oxşar texnologiya ilə tikilib. İnşaatdan sonra onun bir ucunu gümbəzin düz riyazi ortasına bərkidib, ayağını payadan ayırıblar. Bu zəncir, binanın-gümbəzin düz riyazi, həndəsi ortasındadır.

Bu səbəbdən ən incə tərpənişlərə belə reaksiya verir. Xalq bu mütənasibliyə möcüzə kimi baxır, ona niyyət edir.

Bu ocaqda bir dəfə "ksenoqlossiya" fenomeni qeydə alınıb. Yəni bir gün oradakı bir qızcığaz qəfildən çox qədim bir dildə danışmağa başlayıb. Moskva alimləri fenomeni gəlib öyrəniblər.

Əshabü-kəhv də Moskva alimləri tərəfindən öyrənilib. Bu tədqiqatlara bu gün Avropa ölkələri, Rusiya maraqlıdır. Bizsə belə möcüzələrə həmişə öz ironiyalarımızla məşhuruq.

***- Bəs bu Goranboydakı Miribiş piri, oradakı ziyarətçilərin qaloşu, papağı başlarına sürtməsi xürafatlıq deyil?***

- Yenə də deyirəm, bizdəki paranormal ünvanlar elm tərəfindən tədqiq edilməyib. Bizdə hətta ufalogiya, yəni yadplanetli izlərini öyrənən elm sahəsi də yoxdur. Bu səbəbdən mövzuya dəqiq təyinatımı verə bilmərəm.

Belə ünvanlar adətən xüsusi testlər vasitəsilə tədqiq edilir. BMT-də, Harvard Universitetində araşdırılır.

Habelə digər elm ocaqlarında dediyiniz oxşar mövzular araşdırılır. Azərbaycanda buna elmi yanaşmalar sergilənməyib. Ortada böyük ağ ləkələr var. Parapsixologiya elmi üzrə mütəxəssislər bizdə yoxdur.

Bu cür ünvanların monitorinqi yoxdur, rəyimi ancaq bu tədqiqatlardan sonra verə bilərəm. Ancaq bilirəm ki, Azərbaycanda əsl möcüzəli insanlar, möcüzələr mövcuddur. Di gəl ki, adam bu haqda danışmaq istəmir. Mövzu çox mübahisəlidir. Vaxtilə bu ocaqları bittə-bittə gəzmişəm, nəticələri bölüşmək fikrində deyiləm.

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**



## Hüquq müdafiəçisi amnistiya aktının qəbulunu istəyir

### Novella Cəfəroğlu: "Siyasi məhbus məsələsini birdəfəlik həll etməliyik"

**15 iyun Qurtuluş Günü ilə əlaqədar əfv və amnistiya aktı ətrafında gedən müzakirələr qızışır. Hüquq müdafiəçiləri belə bir qərarın qəbulunu vacib sayırlar. Onlar son əfvin bu ilin martında imzalandığını nəzərə alaraq, amnistiyanın veriləcəyinə daha çox inanırlar. Hətta qarşıdakı günlərin birində parlamentin iclasının çağırılıb, amnistiyanın qəbul edilə biləcəyi vurğulanır.**

Bundan əlavə, qarşıdan AŞ PA-nın yay sessiyasının gəldiyi önə çəkilərək, o zamana qədər siyasi məhbus və digər bu kimi problemlərin həll edilməsinin önəmi qeyd olunur.

**Hüquq müdafiəçisi Novella Cəfəroğlu** amnistiyanın verilməsini çox istədiklərini söylədi: "AŞ PA-nın yay sessiyası yaxınlaşır və biz də orada iştirak edəcəyik. Amnistiyanın olması Azərbaycan üçün çox vacibdir. Biz də çox istəyirik ki, parlament amnistiya məsələsini qaldırsın. Dövlətçilik üçün bu çox vacib olardı. Bununla Avropa Şurasına alnıaçıq gedə bilərik ki, həm əfv vermişik, həm də amnistiya qəbul etmişik. Həbsdə qalan siyasi məhbuslar da azad olunsa, çox müsbət addım olar. Çox ümidliyik ki, bunlar olacaq. Olmazsa, sadəcə, ziyan görərik. Son əfvdə 61 siyasi məhbus azad olundu, amma bu problem tam bitmədi. Hələ də həbsxanalarda siyasi məhbuslar qalır. Jurnalistlərdən həbsdə qalanlar var. Bundan əlavə, "Nardaran işi" ilə bağlı elə insanlar var ki, azad oluna bilərlər, yaxud işlərinə yenidən baxılması mümkündür. Bütün dövlətlərdə siyasi məhbus var. Əsas məsələ reformalardır. Azərbaycan dəyişiklik etməlidir. Getdikcə dəyişikliklər də olur. Daha qlobal məsələlərə diqqət ayırmağımız vacibdir. Siyasi məhbus məsələsini birdəfəlik həll edib, digər problemlərimizə diqqət ayırmalıyıq. Dağlıq Qarabağ kimi çox ciddi problemimiz var. Siyasi məhbus məsələsinin gündəmdə qalması bəziləri üçün maraqlıdır. Bu marağı sıradan çıxarmaq lazımdır və burada hakimiyyətin özü maraqlı olmalıdır. Bütün sahələrdə reformalara ehtiyac var".

Hüquq müdafiəçisi AŞ PA-nın yay sessiyasında Azərbaycan tərəfin təzyiqlərlə üzləşəcəyini düşünmür: "Azərbaycanla Avropa Şurası arasında birgə plan var. Ortaq bir platforma hazırlayıblar. Orada insan haqları və bu tipli məsələlər yer tutur. Azərbaycanda dəyişikliklərin olmasında AŞ PA maraqlıdır. AŞ PA-nın Azərbaycanla işləməyə həvəsi var. Belə həvəs olan yerdə təzyiqlərin olacağına inanmıram. Xaricdə oturub pafoslu şəkildə danışan bəzi azərbaycanlılara inanmayın. AŞ PA ilə Azərbaycan arasında çox yaxın münasibətlər mövcuddur".

❑ **Cavanşir ABBASLI**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 125 (7295) 12 iyun 2019

**Hazırda mətbuatın əsas problemlərindən biri də reklam bazarının zəif inkişaf etməsidir. Əgər əvvəllər çap mediası bu sahədə televiziyalar ilə rəqabət aparırdısa, indi sosial şəbəkələr də qəzetlərin əsas rəqibinə çevrilib. Hətta onlayn media orqanları belə reklam tapmaqda çətinlik çəkir ki, bu da onların maliyyə vəziyyətinin pisləşməsinə, iqtisadi asılılığın artmasına gətirib çıxarır. Ötən gün bu mövzuda "Yeni Müsavat"a müsahibə verən Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli bildirmişdi ki, bu mövzu təmsil etdiyi qurumun diqqətindədir və medianın reklam bazarının təkmilləşdirilməsi ilə bağlı təkliflər paketi yazaraq hökumətə göndərilib. Təəssüflər olsun ki, hələ də hökumətdə bu məsələyə baxılmayıb. "Yeni Müsavat "olaraq bir daha mövzunu gündəmə gətirməyə çalışdıq. Çünki azad və nüfuzlu mətbuatın inkişafı üçün reklam bazarının şəffaf olması, ədalətli reklam bölgüsü və media qurumlarının maddi gəlirlərinin bu istiqamətdən formalaşması vacib şərtdir.**

# Media kapitanları mətbuatın reklam problemlərindən danışdı

## İllərdir müzakirə olunan problem nə zaman həllini tapacaq...

Təsadüfi deyil ki, dəfələrlə dövlət başçısı da bu mövzuya toxunaraq medianın reklam bazarının inkişafı istiqamətində iş aparılması ilə bağlı tapşırıq verib.

Mövzu ilə bağlı "Yeni Müsavat"a danışan **"Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı** bildirdi ki, ilk növbədə Türkiyə təcrübəsində olduğu kimi reklam bazarına nəzarət edən bir qurumun yaradılmasına ehtiyac var: "Reklam bazarı və mətbuatın reklam almaq imkanlarının genişləndirilməsi ilə bağlı Mətbuat Şurası bir neçə təkliflə çıxış edib. Bir neçə ildir ki, bu məsələ müzakirə olunur. Bundan ötrü ilk növbədə Reklam Agentliyinin yaradılmasına ehtiyac var. Bu istiqamətdə Türkiyə təcrübəsini Azərbaycanda tətbiq etmək olar. Hətta biz Türkiyədə reklam qurumu deyilən və qəzetlər arasında reklamın bölgüsü ilə məşğul olan bu orqanın nümayəndələrini də ölkəmizə dəvət etmişdik. Onlar burada müzakirələrdə iştirak etmişdilər. Çox təəssüf ki, bu təkliflərin hər biri təklif olaraq qaldı və reallaşmadı. Hazırda ölkədə reklam bazarı o qədər də ürəkaçan deyil və onun səbəbləri var. Səbəblərindən biri ondan ibarətdir ki, son dövrlər sosial şəbəkələr ənənəvi medianı və yeni medianı üstələyib. Sosial şəbəkələrdə hər bir şirkətin, hər bir təşkilatın, ümumiyyətlə, iqtisadi münasibətlərdə iştirak edən qurumların özlərinin sosial hesabları var və o hesablar üzərindən özlərinin reklam təbliğatını aparırlar. Hesab edirlər ki, ən doğru yol da bundan ibarətdir".




Baş redaktor vurğuladı ki, sosial şəbəkələr heç zaman peşəkar medianı əvəz edə bilməz: "Peşəkar medianın çox böyük təsir imkanları var və ciddi rəy yaratma imkanları sosial şəbəkələrdən daha çoxdur. Əvvəllər iri şirkətlər reklamlarını çap mediasına yox, televiziyalara verirdilər. Ancaq indi artıq televiziyaların da reklamları məhdudlaşıb. Ona görə də reklam qurumu yaratmaq lazımdır, özəl strukturların, sənaye, ticarət və sairlə məşğul olan strukturların reklamlarını vahid bir platformada cəmləşdirmək lazımdır".

A.Aşırlının sözlərinə görə, Azərbaycanda iqtisadi müstəqilliyi olan medianın mövcudluğu dövlətin nüfuzu baxımından da önəmli məsələdir. Buna görə də mətbuata reklam verən kommersiya şirkətlərinə müəyyən güzəştlərin edilməsi bu məsələdə stimullaşdırıcı rol oynaya bilər: "Biz əvvəllər əlavə bir maddəni də müzakirə etmişdik ki, bizim milli brendimiz sayılan məhsulların reklamına pul ayıran şirkətlərə müəyyən qədər vergi güzəştləri olsun. Əgər bu güzəştlər olsa, şirkətlər də meyilli olar. Hazırda ölkədə bu istiqamətdə vəziyyət çox acınacaqlıdır. Mətbuatın reklam imkanları sıfıra bərabərdir. Bu durumun düzəlməsi üçün verilən qərarlara, təkliflərə hörmətlə yanaşmaq lazımdır. Mətbuatın inkişaf konsepsiyasından irəli gələn məsələlərə yenidən baxmaq, onları yenidən həyata keçirmək lazımdır. Beynəlxalq aləmdə də Azərbaycan mətbuatına münasibət birmənalı deyil. Bizi asılı mətbuat hesab edirlər. Çünki beynəlxalq aləmdə qəzetlərin yaşamasının 60 faizi reklamdan asılıdır. Bizdə isə reklam gəlirləri 1-2 faiz deyil. Bu səbəbdən Azərbaycan mətbuatı ilə bağlı dünyada müsbət fikrin formalaşması üçün mütləq qərar qəbul olunmalıdır və reklam qaydaları müəyyənləşməlidir".

**"Yeni Müsavat" Media Qrupunun baş direktoru Ələsgər Süleymanov** isə qeyd etdi ki, reklam bazarının normallaşması üçün ən əsas şərtlərdən biri bazarda rəqabətin olmasıdır: "Yəni sahibkarlıq fəaliyyəti ilə məşğul olan insanlar hiss etməlidir ki, bazarda normal rəqabət var. Bu rəqabət fonunda onlar öz məhsullarını reklam etməkdə maraqlı olmalıdırlar. Şirkətlər alıcıya göstərməyə çalışmalıdır ki, onun məhsulu daha keyfiyyətlidir, daha yaxşıdır. Bu zaman isə reklama ehtiyac yaranacaq və artıq reklam pulun bir cibdən digər cibə axıdılması, kiməsə nəyinsə xətrinə reklam adı ilə pul ödənməsi şəklində olmayacaq, həqiqətən də reklam maraqlarına xidmət edəcək, müəssisənin istehsalı etdiyi mal və ya xidmətin müştəriyə normal təqdimatına xidmət edəcək. O zaman reklam bazarı da normal fəaliyyət göstərəcək, həm elektron informasiya vasitələri, həm də qəzetlər ondan qazanacaqlar. Mətbuat Şurasının yen təklifləri ilə tanış deyiləm, ancaq bu məsələnin yenidən gündəmə gətirilməsini məqbul hesab edirəm. Biz də öz təkliflərimizi verməyə hazırıq. Ümid edirik ki, bununla bağlı hansısa iş görüləcək, uzun müddətdir ki, heç bir addım atılmayıb. Prezident mətbuat nümayəndələri ilə görüşündə də dəfələrlə bu məsələni vurğuladı və diqqətə çatdırdı ki, bu işlə məşğul olmaq lazımdır. Ancaq, hələ ki, heç bir iş görülməyib. Ümid edirik ki, bu məsələdə hansısa addım atılsın".

**"Bakı Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev** isə vurğuladı ki, reklam bazarı hələ çap mediası üçün tam açıq deyil: "Çap medianın reklam bazarı ilə münasibətləri illər öncə necə idisə, indi də elədir. Hələ ki, ciddi bir dəyişiklik yoxdur. Yaxşı ideyalar var, təkliflər verilib, müvafiq dövlət qurumları qarşısında məsələ qaldırılıb. Ancaq hələlik bu problemin həlli istiqamətində irəliləyiş hiss olunmur. Ancaq, əlbəttə ki, reklam bazarının çap mediasının üzünə açılması bizim arzumuzdur. Həm də daha çox çap mediasının bugünkü vəziyyəti bunu tələb edir. Reklam bazarı normal olsa, mətbuatın bir çox böyük problemlərinin həlli mümkün olar. Ancaq nə qədər ki, bazar üzümüzə bağlıdır, çap mediasının bir sıra problemlərinin, xüsusilə də maliyyə problemlərinin həlli çətinləşir".

**❑ Nərgiz LİFTİYEVA, "Yeni Müsavat"**

# Həbsdə olan AXH üzvləri barədə son xəbərlər

**Xəbər verildiyi kimi, mayın ortalarından etibarən Azərbaycan Xalq Hərəkatının üzvləri bir-birinin ardınca aidiyyəti orqanlara çağırılıb dindirilir. Bu proses əvvəlki kimi olmasa da, hələ də davam edir. AXH üzvlərindən inzibati cəzalar alanlar da var.**



Hərəkatın dönəm sədri, Gələcək Azərbaycan Partiyasının rəhbəri Ağasif Şakiroğlu son durumu "Yeni Müsavat"a şərh etdi: "AXH İdarə Heyətinin həbsdə olan üzvlərindən İlyas Abdullayev 5 iyun tarixində azad edildi. Məlum oldu ki, İlyas bəy 15 gün azadlıqdan məhrum edilərək Mütəşəkkil Cinayətkarlıqla Baş Mübarizə İdarəsində saxlanılıb. Hazırda İdarə Heyətinin üzvlərindən Yavər Milayılov, Məclis üzvlərindən isə Ramiz Səlimov həbsdədir. Yavər Mikayılov Mütəşəkkil Cinayətkarlıqla Baş Mübarizə İdarəsində saxlanılır. Ramiz Səlimovu Müvəqqəti Saxlama Məntəqəsinə aparıblar. Yavər Mikayılovun həbs müddəti 20 iyun, Ramiz Səlimovun həbs müddəti isə 3 iyulda tamam olacaq. Buna paralel olaraq AXH Ali Məclisinin üzvləri olan Rəşad Ələkbərov və Mirqulam Əliyev barəsində ölkə üzrə axtarış haqqında məhkəmə qərarının verildiyi gələn informasiyalar sırasındadır. Onların mənzillərində ötən ay axtarış aparılıb. Eyni zamanda iyunun 10-da AXH fəalı Elməddin Bağırlı Binəqədi polisinə dəvət edilərək 4-5 saat saxlanılıb. Hərəkatla bağlı sorğu-sual edildikdən sonra sərbəst buraxılıb. Düşünürəm ki, bu cür yollarla hakimiyyət AXH tərəfdarlarını qorxutmaq istəyir. Amma istəyinə çatmağa nail olmayıb. Təkcə iyunun 10-da keçirilən AXH İdarə Heyətinin toplantısında hərəkata üzvlüklə bağlı müraciət etmiş yeni 23 nəfəri sıralarımıza qəbul etdik. İctimai diqqət və dəstəyi görürük".

**❑ Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 125 (7295) 12 iyun 2019

# Heydər Əliyev Elçibəy iqtidarındakıları ölümdən qurtarıb

## 15 iyun həm də cəbhəçilərin qurtuluş günüdür; **Elman Nəsirov:** "O, vətəndaş müharibəsinin qarşısını aldı, ölkədə milli barışığa nail oldu"

**1993-cü il 4 iyun qiyamında Surət Hüseynov, başda prezident Əbülfəz Elçibəy olmaqla, hakimiyyətin yuxarı eşalonunda əyləşənlərin hamısını fiziki cəhətdən məhv edəcəyi xəbərdarlığını etmişdi. Hətta onları asmaq üçün dar ağacı quracağını bəyan eləmişdi. Hakimiyyət qüvvələrinin də Surətin qarşısında aciz duruma düşdüyü məlum idi. Qiyamı beşiyində boğa bilməyən hakimiyyət artıq mövqelərini sürətlə itirməkdəydi. Surət Hüseynovun qüvvələri rayonları ələ keçirə-keçirə Bakıya doğru irəliləyirdilər.**



Bu gözü dönmüş dəstənin qarşısında hakimiyyət qüvvələri, demək olar ki, heç bir müqavimət göstərə bilmirdilər. Siyasi iradəsizlik, nazirlər səviyyəsində satqınlıq da bir yandan vəziyyəti hakimiyyətin zərərinə sürətlə dəyişirdi. Bir sıra tarixçilər və siyasi təhlilçilər hesab edir ki, Heydər Əliyev Naxçıvandan Bakıya gəlməsəydi, 15 iyunda Milli Məclisin sədri seçilərək prosesə müdaxilə etməsəydi Surət Hüseynovun qüvvələri paytaxtı ələ keçirəcəkdilər və prezident Əbülfəz Elçibəy də daxil hakimiyyət komandasının fiziki məhvi məsələsi reallaşa bilərdi. Gəncədə hökumət qüvvələrinin komandirini qətlə yetirən, mərkəzdən göndərilmiş hökumət rəsmilərini, baş prokuroru girov götürən qüvvənin buna getməyəcəyinə təminat yox idi. Elçibəy Heydər Əliyevi dəvət etməsəydi hakimiyyət Surətin qüvvələri ilə üz-üzə qalacaqdı və qeyd olunan bu cür dəhşətli hadisələr o zaman yaşanacaqdı. Bu baxımdan Heydər Əliyevin gəlişi əslində həm də AXC hakimiyyətinin başında dayanan bir çox insanları bəlkə də ölümdən qurtarmış oldu.

**Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyası Beynəlxalq əlaqələr komissiyasının katibi Elman Nəsirov** hesab edir ki, 15 iyun xaosun sonu, milli qurtuluşun başlanğıcıdır: "Ümummilli lider Heydər Əliyev 1993-cü ilin 9 iyununda Bakı şəhərinə qədəm qoyarkən Azərbaycanda dövlətçilik itirilmişdi, deməli, heç nə yox idi. Heydər Əliyev ilk növbədə Azərbaycanın itirilmiş dövlətçiliyini bərpa etdi, ölkəni permanent xaos vəziyyətindən çıxardı, vətəndaş müharibəsinin qarşısını aldı, ölkədə milli barışığa nail oldu, bütün sahələrdə dinamik inkişaf tendensiyalarının əsasını qoydu. Azərbaycanda siyasi sabitlik və inkişaf dövrü başlandı. Heydər Əliyevə Azərbaycan xalqı daim minnətdardır".

**AMİP katibi Əli Orucov** isə bildirdi ki, nədənsə AXC iqtidarının nümayəndələri 4 iyun hadisələrindən danışarkən, nə qiyama aparan səbəblərdən, nə də özlərinin suçları barədə bir kəlmə də danışmaq istəmirlər: "Halbuki 1 ilə yaxın müddət ərzində yürütdükləri siyasət və gördükləri iş onların hakimiyyətdən gedəcəyini sürətləndirirdi. Surət Hüseynov olmayacaqdı, bir başqası olacaqdı. AXC-nin özü də hakimiyyəti silahla zəbt etmişdi və kommunistlər və cəbhəyə sadiq, cəbhədəki ayrı-ayrı nüfuzlu şəxslərin dost-tanışları, yaxınları yüksək vəzifələrə təyin olunmuşdular. Yaxın vaxtlaradək sabiq dövlət yetkililəri, həttə, vaxtılə mərhum prezident Əbülfəz Elçibəy bildirirdi ki, Gəncədəki hadisələrdən xəbəri yox idi. Amma Pənah Hüseynin məlum məxfi adlandırdığı Dövlət Müdafiə Komitəsinin iclasının stenoqrammından bir daha aydın oldu ki, Surət Hüseynovun Gəncədəki fəaliyyətindən bütün dövlət orqanlarının xəbəri olub və onu ya həbs, ya da fiziki məhvi gündəmə gətirilib. Bir halda ki, iddia etdikləri kimi, AXC-nin hakimiyyətə gəlməsi labüd idisə, xalq etimad göstərib qanı-canı bahasına müstəqilliyinə qovuşdurduğu dövlətini və öz taleyini prezident seçdiyi Əbülfəz Elçibəyə, onun komandasına etibar etmişdisə, səbəbi, sonucu nə olurdusa olsun, bu etimad qorunmalı idi. Prezidentlik vəzifəsi xalqın verdiyi bir əmanətdir. Onu qorumaq lazım idi, Surət Hüseynovun qarşısında acizlik göstərmək və atıb getmək yox. Görün, hakimiyyətləri nə qədər zəif olub ki, bir qondarma polkovnikin məhdud sayda silahlılarının qarşısında aciz duruma düşüblər. Onlar Surət Hüseynovun qarşısını kəsmək yox, onun qəzəbindən xilas olmaq üçün addımlar atırdılar. Bir polkovnikin qarşısına çıxmağa cürət etmədilər. Bir silləyə baş prokuror öz prezidentinin həbs sanksiyasını verdi. Ona görə də düşündülər ki, Heydər Əliyevi dəvət etməsələr Surət bunları məhv edəcək".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Paşinyan Qarabağ klanına qarşı "sanksiya" qərarı verdi-separatçıların pulu kəsilir

## Ermənistan klanı işğal zonasındakı qondarma quruma rəhbərliyi də ələ keçirmək istəyir; politoloq: "Güc tətbiq etməyin vaxtı çatıb"

**Ermənistan hakimiyyəti ilə Azərbaycanın işğal altındakı qondarma rejimin liderləri arasındakı uçurum getdikcə dərinləşir. Xüsusilə də 2020-ci ildə separatçı quruma yeni oyuncaq "prezident seçkiləri"nin keçiriləcəyi barədə məlumatların yayılmasından sonra İrəvan Bako Saakyanı əvəzləyəcək yeni şəxsin axtarışına çıxıb.**



Bu arada Nikol Paşinyanın hökuməti qondarma "Dağlıq Qarabağ respublikası" rejiminin maliyyə yardımı barədə xahişlərini rədd edib. Virtualaz.org xəbər verir ki, bu sensasion məlumatı Rusiya mənbələri erməni mətbuatına istinadən yayıb. Məlumatda deyilir ki, Paşinyan Dağlıq Qarabağa maliyyə yardımının göstərilməsi üçün qondarma rejimin "təhlükəsizlik şurasının katibi", general Vitali Balasanyanın istefası şərtini irəli sürüb. Qondarma "prezident" Bako Saakyan Balasanyandan Ermənistan hakimiyyətinin tələbini yerinə yetirib, istefa verməyi istəsə də keçmiş səhra komandiri bu addımı atmaqdan imtina edib. Lakin son anda Saakyan istəyinə nail olub. Belə ki, o, 11 iyunda istefa ərizəsini yazıb. Xatırladaq ki, Balasanyan "DQR prezidenti" postuna iddialıdır və onunla Paşinyan arasında ciddi ixtilaf var.

Maliyyə yardımı barədə xahişlər artıq ikinci aydır Ermənistan hökuməti tərəfindən rədd edilir. Mənbələr yaranmış vəziyyəti Ermənistan tərəfdən Dağlıq Qarabağa tətbiq edilmiş sanksiya kimi qiymətləndirirlər. Bundan əvvəl Paşinyan Dağlıq Qarabağın rəhbərliyini, o cümlədən Balasanyanı Qarabağda yeni müharibə qızışdırmaq planlarında ittiham etmişdi. Onun bildirdiyinə görə, həmin qüvvələr müharibəni başladıb "bəzi əraziləri verməyi" və buna görə Ermənistan hakimiyyətini günahlandırmağı planlaşdırır.

Paşinyan Balasanyan da daxil olmaqla separatçı rejimin hərbi rəhbərliyini Azərbaycan və Ermənistan arasında yeni müharibənin alovlandırılmasına görə ittiham edib. Bununla yanaşı, separatçı rejimin keçmiş rəhbəri Arkadi Qukasyanla indiki rəhbəri Bako Saakyan keçmiş prezident Robert Köçəryana azad olunması üçün zamin durublar. Separatçılarin maliyyə yardımının kəsilməsi isə böhranı daha da dərinləşdirib. Bəzi ekspertlərə görə, mümkündür ki, Paşinyanın komandasının separatçılara maliyyə yardımını verməməsi iki hədəfə hesablanıb: birincisi, Paşinyanın istəmədiyi şəxslər istefaya göndəriləcək, ikincisi, Qarabağdakı ermənilər iqtisadi çətinliyə görə rejimə qarşı etiraz edəcəklər. Əsas məqsəd keçmiş hakimiyyətə yaxın olan separatçı rejimin rəhbərliyinin təmizlənməsidir. Lakin bu situasiya Azərbaycanın da əlini gücləndirə bilər. Çünki Qarabağdakı ermənilər nə qədər iqtisadi çətinliklə qarşılaşsalar, bu, onlar üçün Azərbaycanı daha çox cəzbedici edəcək. Bu, rəsmi Bakının Qarabağa Azərbaycanın tərkibində muxtariyyətin verilməsi və oradakı ermənilərin Azərbaycan vətəndaşı olaraq daha yaxşı yaşaması təklifinin qəbul edilməsi ilə nəticələnə bilər.

Politoloq Arzu Nağıyev isə Qarabağ erməniləri ilə İrəvan arasındakı gərginliyin Qarabağ məsələsində hansısa irəliləyişə səbəb olduğunu güman etmir: "Ermənilərin hamısının mövqeyi birdir. Hətta müdafiə naziri David Tonoyan özbaşına Azərbaycan əsgərini vurmaqla bağlı bəyanat verə bilməzdi. Qarabağ klanı ilə Ermənistan arasındakı gərginlik isə Azərbaycana heç bir fayda verməyəcək. İrəvan separatçılara maliyyə ayırmayacaqsa, başqaları ayıracaq. Öz daxili oyunlarıdır".

A.Nağıyev şübhə etmir ki, əsas oyun Qarabağdakı saxta seçkilərlə bağlıdır: "Paşinyanın öz namizədi var, 2020-si il "seçkilərində" Bako Saakyan istəyir ki, Vitali Balasanyan onu əvəzləsin, bunu isə Paşinyan istəmir. Hətta "Artsax" vilayətinin qubernatoru kimi bir vəzifənin də olmasını istəyirlər. Paşinyan istəyir ki, Araik Arutunyan (keçmiş baş nazir) Bako Saakyanı əvəzləsin. Artıq Xankəndi və İrəvanı barışdırmaq üçün kilsəni də ortaya atmağa çalışırlar". Politoloqa görə, Azərbaycan ancaq və ancaq ATƏT və ya BMT-yə, digər beynəlxalq qurumlara işğalın davam etməsi ilə bağlı müraciət edə bilir: "Çox təəssüf ki, bu gün güc qanunlara daha üstün gəlir. Hazırda unikal vəziyyət yaranıb. Deməli, güc tətbiq etməyin vaxtı çatıb".

**Politoloq Məhəmməd Əsədullazadə** də "Yeni Müsavat"a dedi ki, Paşinyan hakimiyyətinin ilk günündən Qarabağdakı separatçıları dəyişib, yerinə öz adamlarını yerləşdirməyə çalışır: "Çünki burada olanlar Qarabağ klanına məxsusdurlar və Köçəryanın təlimatı ilə idarə olunur. Ermənistandakı inqilaba qarşı əks-inqilab ssenarilərinin məhz Qarabağda hazırlanması da istisna deyil. Bunu Paşinyan yaxşı bildiyi üçün buradakı separatçı rejim başçıları ilə söz duelini aparır və dəyişməyi planlayır. Separatçı rəhbər Bako Saakyan və Vitali Balasanyanla davam edən aralarındakı böhran daha da kəskin xarakter ala bilər". M.Əsədullazadə dedi ki, hazırda Nikol Paşinyan rejimi dəyişmək və zəifləmək üçün maliyyəsini kəsir: "Bu da yeni təzyiq alətidir və istədiyi şəxsi rejim başçılarından uzaqlaşdırmaq üçün effektli variant kimi nəzərdən keçirir. Vitali Balasanyanla Paşinyan kəskin münaqişədədir və onun istefasını Bako Saakyandan tələb edir. Davam edən siyasi münaqişə hakimiyyət uğrundadır və İrəvan klanı Qarabağ klanını tam hakimiyyətdən qoparmağı hədəfləyir. Lakin Qarabağ klanı Xankəndidə dirəniş göstərir. Hesab edirəm ki, gələn il separatçı rejimdə gözlənilən seçki prosesində Paşinyan Qarabağ klanını uzaqlaşdırmağı planlayır. Buna da separatçı rejim aqressiya ilə cavab verir. Bako Saakyan öz ətrafını dəyişməklə yeni baş qaldıra bilən inqilabdan qorxur. Qondarma seçkilərə yaxın ətrafını təmizləməklə özünü sığortalamağa çalışır. Hesab edirəm ki, Kreml Qarabağ klanının arxasındadır və Paşinyana dirəniş davam edəcək".

❑ **Cavid TURAN,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 125 (7295) 12 iyun 2019

# Neft bazarında qeyri-sabitlik - Azərbaycan üçün risk varmı?

**Dünya neft bazarındakı proseslər kifayət qədər ziddiyyətli məcraya qədəm qoyub. Son həftələrdə müşahidə olunan davamlı qiymət ucuzlaşması bir qədər zəifləsə də, bu sahədə proqnozlar heç də ürəkaçan deyil.**

Maraqlıdır ki, hazırda neft bazarında cərəyan edən proseslərin mühüm bir qismi dünya nəhəngi ABŞ-ın davranışlarından qaynaqlanır. Belə ki, bu ölkənin İrana qarşı sanksiyaları bazara çıxarılan neftinin həcminin azalması vasitəsilə qiymətləri artırırsa, Çinlə başlatdığı ticarət savaşı əksinə, ucuzlaşmanı şərtləndirir.

**Azərbaycanın energetika naziri Pərviz Şahbazovun** sözlərinə görə, dünya neft bazarı 2014-cü ilin ikinci yarısından bəri qeyri-sabitlik yaşamaqdadır: "OPEC+ formatında bazarda dəyişən vəziyyətə uyğun çevik tənzimləmə tədbirlərinə baxmayaraq, qeyri-sabitlik hələ də qalmaqdadır. Neftin 70 ABŞ dolları ətrafında qərarlaşan qiyməti qənaətbəxşdir. Bununla belə, həm istehsalçılar, həm də istehlakçıların maraqlarına uyğun qiymət sabitliyinin və bu məqsədlə tələb-təklif balansının qorunub saxlanılması ehtiyatlı düşünülmüş addımlar atılmasını zəruri edir. Mövcud iqtisadi və siyasi amillərin təhlili də göstərir ki, hazırda tələb-təklif tarazlığı üçün başlıca meyar kommersiya meyarıdır. Belə ki, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ölkələrində neft ehtiyatları son 5 ilin orta göstəricilərindən çoxdur. Həmçinin təşkilatdan kənar ölkələr, o cümlədən ABŞ son illər şist neft hesabına əldə etdiyi hasilat göstəriciləri ilə ənənəvi neft hasilatçılarını geridə qoyub. Buna görə də OPEC+ çərçivəsində əldə edilmiş razılığın bu ilin aprel ayında 168 faiz yerinə yetirilməsi, üstəlik razılaşmadan kənarda qalan bir sıra OPEC ölkələrində hasilatın azalması, qlobal neft bazarında ticarət məhdudiyyətlərinə və geosiyasi qeyri-sabitliyə baxmayaraq, neft tədarükündə çatışmazlıq və bundan irəli gələn yüksək qiymət dəyişikliyi müşahidə olunmur".

P.Şahbazov qeyd edir ki, razılaşma çərçivəsində hasilatda gündəlik təxminən 2 milyon barellik azalma, bazardakı artıq təklifi tam konpensasiya edə bilmir: "Buna görə də indi OPEC+ ölkələri qarşısında duran prioritet məsələ kommersiya neft ehtiyatlarını müvafiq səviyyəyə çatdırmaqdır. Bu, qlobal tələbatla bağlı müşahidə olunan risklərdən sığortalanmaq üçün də əhəmiyyətlidir".

Nazir həmçinin deyib ki, ötən il neftin qlobal istehlakında artım 1,4 faiz olsa da, bu il dünyada neftə gündəlik tələbatın 1,2 milyon barelə qədər azalacağı proqnozlaşdırılır: "Ötən il dünyada enerjiyə tələbat son illərdə ən yüksək səviyyədə olsa da, Avropada enerjiyə tələbat xüsusilə də bərpa olunan enerjidən istifadənin genişlənməsi və enerji səmərəliliyi nəticəsində azalıb. Burada 2050-ci ilə qədər neft-qazın ümumi idxalındakı nisbəti 55 faizdən 20 faizə düşəcək. Hazırda ABŞ və Çin arasındakı ticarət mübahisələri də qlobal iqtisadi inkişafa təsir edir və neftə tələbatı azaldan amil kimi nəzərdən keçirilir. Bütün bunlar

## **Ekspert:** "Qiymət 40 dollara düşsə, manatın məzənnəsini uzun müddət sabit saxlamaq mümkün olmayacaq..."




isə göstərir ki, bazarda qiymətlərin sabitliyi üçün hasilat vasitəsilə tənzimləmə əsas nailiyyətdir".

Nazirin də qeyd etdiyi kimi, hazırda bazarda qiymətləri istehsalçılar üçün uyğun həddə saxlamaqdan ötrü OPEK+ ölkələrinin hasilatı azaltmaq qərarı yeganə uğurlu vasitədir. Elə buna görə də bütün nəzərlər OPEK+ toplantısına dikilib. Səudiyyə Ərəbistanının enerji, sənaye və təbii sərvətlər naziri Xalid əl Falih bildirib ki, OPEC və qeyri-OPEC ölkələrinin, demək olar ki, hamısı neft hasilatının azaldılmasına dair "Əməkdaşlıq Bəyannaməsi"nin müddətini daha 6 ay uzatmağa razıdır (Report): "İraqın neft naziri (Tamir əl Qabdan) bunu ictimaiyyət üçün də açıqlayıb, özəl söhbətimiz zamanı da təsdiq edib. OPEC+ sazişinə qoşulmuş BƏƏ, Küveyt kimi böyük hasilatçılar, həmçinin Oman, Qazaxıstan, Azərbaycan kimi qeyri-OPEC ölkələri sazişin müddətini uzatmağı dəstəkləyir".

Nazirin sözlərinə görə, məsələyə dair qərarını verməyən yeganə ölkə OPEC+ iştirakçıları arasında ən böyük neft hasilatçısı Rusiyadır. Məsələ bu ölkənin energetika naziri Aleksandr Novakla üç həftə sonra keçiriləcək görüş zamanı müzakirə ediləcək: "May-iyun aylarında hasilatın azaldılması ilə bağlı icra vəziyyəti yaxşı olub. Sazişin uzadılması rəsmi olaraq imzalandıqdan sonra Rusiyanın ilin sonunadək öhdəliyə əməl edəcəyinə ümidvaram. Rusiyanın bir çox şirkətləri, o cümlədən "LUKoil"un rəhbəri Vahid Ələkbərov tərəfindən həmrəy mənalı bəyanatlar eşitmişəm. Odur ki, əməkdaşlığın üstünlükləri göz qabağındadır. Rusiyanın hasilatı cəmi 2 faiz azaltması sabitlik və mühüm artım deməkdir. Bundan sonra nazir Novakla keçirdiyim görüşlərdən eyni qənaətə gəlmişəm, yəni bazar izlənilməlidir, onu sabitliyə yönləndirdiyimizə əmin olmalıyıq".

Bu günlərdə açıqlama verən Rusiya baş nazirinin müavini və maliyyə naziri Anton Siluanov, habelə energetika naziri Aleksandr Novak da OPEK+ qərarının qiymətlərə həlledici təsirini qeyd ediblər. Onlar əmindirlər ki, hasilatın azaldılması qərarının müddəti uzadılmasa dünya bazarlarında neftin qiymətinin 30 dollara qədər düşməsi realdır. Bu açıqlamalardan görünür ki, Rusiya da OPEK+ çərçivəsində hasilatın azaldılması qərarının uzadılmasına razılıq verəcək.

Onu da bildirək ki, Azərbaycan may ayında da hasilatın azaldılmasına dair öhdəliyinə əməl edib. Energetika Nazirliyinin açıqladığı məlumata görə, ötən ay ölkədə neft hasilatı gündəlik 776 min barel təşkil edib. Bunun 699 min barelini xam neft, 77 min barelini kondensat təşkil edib. Gündəlik 494 min barel xam neft, 75 min barel kondensat, 14 min barel isə neft məhsulları ixrac olunub.

Beləliklə də, gündəlik neft hasilatının 776 min barel həcmində saxlanmasına dair razılaşma müqabilində Azərbaycan hasilatı sutkada 20 min barel azaltmaqla bağlı götürdüyü öhdəliyi tam yerinə yetirib.

Dünya neft bazarındakı proseslər hasilatçı ölkə olaraq Azərbaycanda yaxından izlənilir. Ölkə gəlirlərinin çox böyük bir hissəsini təşkil edən neft gəlirlərin azalmasının iqtisadiyyata hansı təsirləri ola bilər? Neftin qiymətinin 40 dollardan aşağı düşməsi şəraitində Azərbaycanda növbəti devalvasiya qərarı alına bilərmi?

**İqtisadçı-ekspert Samir Əliyevin** fikrincə, bu ehtimal realdır: "Neftin qiyməti 40 dollara düşərsə, bu, Azərbaycanda yenidən manatın ucuzlaşması təhlükəsi yarada bilər. Bu zaman hökumət üzən məzənnəyə keçildiyini əsas gətirməklə, bu prosesin devalvasiya olmadığını da iddia edə bilər. Amma fakt faktlığında qalır ki, neftin qiyməti uzunmüddətli dövr üçün 40 dollar civarına düşərsə, devalvasiya qaçılmaz olacaq. Əgər qiymətlər qısamüddətli dövr üçün ucuz olarsa, hökumət manatı saxlaya bilər. Lakin uzunmüddətli dövrü əhatə edən ucuzlaşma zamanı bunu davam etdirmək mümkün deyil. Yəni hökumət istəsə belə, uzunmüddətli dövr üçün manatın məzənnəsini saxlaya bilməz. Ortada 2014-2015-ci illərin təcrübəsi var. O zaman Mərkəzi Bankın 11 milyard manat ehtiyatı əridildi manatın məzənnəsini saxlamaq üçün. İndi Mərkəzi Bankın o qədər vəsaiti yoxdur, ikinci tərəfdən də ikinci dəfə eyni səhvə yol veriləcəyi real görünmür".

Ekspert hesab edir ki, son illərdə qeyri-neft sektorunun inkişafı istiqamətində atılan addımlar, hələ ki, iqtisadiyyata neft amilindən müdafiə olunmağa imkan verəcək qədər effekt verməyib: "Ölkə ixracında neftin payı 90 faizin üstündədir. Bu, o deməkdir ki, neftin ucuzlaşması tədiyə balansının pisləşməsinə gətirib çıxaracaq. Neftin ucuzlaşmasını tədiyə balansındakı digər bölmələr - turizm, investisiyalar əvəz edə bilərdi. Lakin hər iki sahədəki vəziyyət buna imkan vermir. Buna görə də düşünürəm ki, neftin qiyməti 40 dollara düşərsə, manatın məzənnəsini uzun müddətə sabit saxlamaq mümkün olmayacaq".

❑ Dünya SAKİT,
"Yeni Müsavat"





## ATƏT rəsmisi Bakıda prezident və spikerlə görüşdü

### Söhbət zamanı Qarabağ münaqişəsinin həlli, əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb

**Prezident İlham Əliyev iyunun 11-də ATƏT Parlament Assambleyasının prezidenti Georgi Tseretelini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanda iqtisadi inkişafın sabitliyə xidmət etdiyi vurğulandı, Bakıda mühüm beynəlxalq tədbirlərin keçirilməsinin təkcə Azərbaycan üçün deyil, ümumilikdə region üçün önəm daşıdığı bildirilib.

Söhbət zamanı Azərbaycan-ATƏT Parlament Assambleyası əlaqələri, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli, əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

**İyunun 11-də Milli Məclisin sədri Oqtay Əsədov** ölkəmizdə səfərdə olan ATƏT Parlament Assambleyasının prezidenti Georgi Tsereteli ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Oqtay Əsədov Azərbaycanın ATƏT ilə əməkdaşlığın daha da dərinləşməsinə önəm verdiyini deyib. O bildirib ki, Milli Məclislə ATƏT PA arasında münasibətlərin inkişafında yüksəksəviyyəli səfərlər əhəmiyyətli rol oynayır. Sədr təşkilata üzv dövlətlərin üzləşdiyi problemlərin həllində qurumun gələcəkdə daha yaxından iştirak edəcəyinə, qətiyyətli və ədalətli mövqe sərgiləyəcəyinə inamını ifadə edib.

Görüşdə Oqtay Əsədov Azərbaycanın Avropanın enerji təhlükəsizliyi arxitekturasına verdiyi töhfələrdən, beynəlxalq nəqliyyat marşrutlarının inkişafında oynadığı roldan danışıb. O, həmçinin qonağın təmsil etdiyi Gürcüstanla əməkdaşlığımızın inkişaf perspektivlərindən söz açıb.

Georgi Tsereteli ölkəmizdə olmasından məmnunluğunu bildirərək qeyd edib ki, ATƏT ilə Azərbaycan arasında əməkdaşlığın dərinləşməsində belə qarşılıqlı səfərlər mühüm rol oynayır. O əlavə edib ki, ATƏT PA Cənubi Qafqazın bu bölgəsi ilə əlaqələrin daha da dərinləşməsinə böyük maraq göstərir. ATƏT məkanında mövcud problemlərin həllində qarşılıqlı dialoqun aparılması vacib məsələlərdəndir. ATƏT PA-nın prezidenti ümidvar olduğunu bildirib ki, təmsil etdiyi təşkilat bu sahədə səylərini gələcəkdə də əsirgəməyəcək.

Qonaq Gürcüstan və Azərbaycan xalqları arasında əsrlərboyu mövcud olan dostluğun bundan sonra daha da möhkəmlənəcəyinə inamını ifadə edib. O, səfər çərçivəsində Bakıda keçiriləcək konfransda iştirakı barədə danışıb və tədbirin əhəmiyyətini qeyd edib.

Görüşdə Milli Məclisin sədr müavini, ATƏT PA-da nümayəndə heyətimizin rəhbəri Bahar Muradova da iştirak edib.

YENİ MÜSAVAT
N 125 (7295) 12 iyun 2019

# 20 iyula yürüş-mitinq təyin edildi

## Müxalifət mitinq üçün müraciətlərdən bezməyib

**Yanvar ayından mayın sonlarına qədər müddətdə müxalifət təşkilatlarının ard-arda mitinq müraciətlərinə Bakı Şəhər İcra Hakimiyyəti hər dəfə "yox" cavabı versə də, müxalifət cavabı alan kimi yeni mitinq üçün məktub ünvanlayırdı. Lakin 25 may mitinqi üçün müraciətə mənfi cavabdan sonra bu ənənə təkrarlanmadı. BŞİH-in mitinq üçün müraciətlərə hər dəfə yox cavabı verməsi sanki müxalifəti yorub.**

**AĞ Partiyanın sədri, ikiyə bölünmüş Azərbaycan Xalq Hərəkatının qanadlarından birinin İdarə Heyətinin üzvü Tural Abbaslı** bildirdi ki, müxalifətin mitinqlərə "yox" cavabından yorulduğu barədə deyilənlərlə razı deyil. Mitinq məsələsi gündəmdən çıxmayıb: "Zamanlar olub ki, iqtidar qeyri-rəsmi şəkildə illərlə mitinq yasağı tətbiq edib. Ancaq müxalif düşərgə hər zaman mübarizənin bu metodundan imtina etməyib və sonunda kütləvi tədbir keçirmək istəyini reallaşdırıb. Hətta 2011-ci ildə mənim özüm də başda olmaqla bir çox dostlarım məhz sərbəst toplaşmaq hüququmuzu reallaşdırdığımız üçün qanunsuz həbsə məruz qalmışıq. Odur ki, müxalifətin yorulduğunu iddia etmək haqsızlıq olar. Həmçinin BŞİH istəsə belə kütləvi aksiyaların qarşısını uzun müddət ala bilməz. Xalqın yığılan etiraz enerjisi əvvəl-axır özünə yol tapar. Bu hal isə ən çox iqtidara sərf etməz. Sadəcə olaraq, hər zaman olduğu kimi yay aylarında siyasi aktivlik dünyada da, ölkəmizdə də azalır. Odur ki, belə siyasi passivlik dönəmində heç bir siyasi quruluş mitinq üçün müraciət etmir. Böyük ehtimalla payız aylarında mitinqlərə yenə də start veriləcək və yenə də bu müraciətlərə neqativ cavab veriləcəksə müxalifət öz konstitusion hüququndan birbaşa istifadə edəcək".



**Gələcək Azərbaycan Partiyasının və AXH-nin qanadlarından birinin sədri Ağasif Şakiroğlu** da mitinq üçün müraciətlərinə mənfi cavablardan yorulmadıqlarını bildirdi: "Düşünürəm ki, əksinə, mitinqlərə icazənin verilməməsi düşərgənin bir qədər də təşkilatlanması baxımından və ictimai narazılığın düşərgə tərəfindən kontrola götürülməsi baxımından faydalı oldu. Məlumat üçün bildirim ki, iyunun 10-da AXH İdarə Heyətinin toplantısında da mitinq məsələsi geniş müzakirə edildi. AXH növbəti yürüş-mitinq qərarını verdi. Yürüş-mitinq iyulun 20-nə təyin edilib. İyunun 12-də Bakı meriyasına rəsmi müraciəti də təqdim edəcəyik.

Yeni müxalifətin mübarizəsi dayanmayıb. 20 iyul 2019-cu il tarixində saat 17:00-dan 19:00-dək AMAY Ticarət Mərkəzinin qarşısından Xocalı Abidəsinə qədər yürüş təşkil edərək mitinqi Xocalı meydanında davam etdirmək qərara alınıb. İqtidar-müxalifət münasibətlərinin davamlı olaraq düşmənçilik səviyyəsində saxlanmasında, eyni zamanda mitinqlərə davamlı olaraq icazə verməməklə müxalifəti icazəsiz aksiyalara yönəltməkdə maraqlı olan qüvvələr var. Biz Xalq Hərəkatı olaraq prosesləri təhlil edərək sağlam qərarların verilməsinin tərəfdarıyıq. Bu səbəbdən də son 6 ildə mitinqlərin mütləq formada "Məhsul" stadionunda keçirilməsi, həmçinin son 14 ildə digər ünvanlarda yürüş-mitinqlərə qoyulmuş qeyri-rəsmi qadağanın aradan qaldırılmasında maraqlıyıq".

"İsgəndər Həmidov ölkəyə qayıdandan sonra AXH ilə əlaqə saxlayıbmı? Onun proseslərdən bir qədər kənarda qalması AXH-nin mitinq hazırlıqlarına necə təsir edəcək" suallarına isə A.Şakiroğlu belə cavab verdi: "İsgəndər Həmidov ölkəyə geri dönüşündən sonra onunla davamlı təmasım olub. Düşünmürəm ki, İsgəndər Həmidov proseslərdən kənardadır. İsgəndər Həmidov proseslərim hər zamankı kimi episentirindədir. Sadəcə, müvvəqqəti olaraq müalicəsilə əlaqədar toplantılara qatılmır. Toplantılara qatılmamasının isə AXH-nin mitinqinə hazırlıq işlərinə düşünmürəm ki, mənfi təsiri olsun. Hesab edirəm ki, 20 iyul mitinqinə qədər İsgəndər Həmidov AXH-nin fəaliyyətində yaxından iştirak etməyə başlayacaq. AXH bir şəxsin siması altında olan qurum deyil, adından da göründüyü kimi, Xalqın Hərəkatıdır. Biz Hərəkatı təsis edən zaman da bütün bu nüansları hesablamışdıq. Bu səbəbdən də hər hansısa bir axsama olası deyil".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Müxalifətin "virtual mübarizəsi"-hər şey sosial şəbəkədə..

## **Tural Abbaslı:** "Virtual məkanın öz yeri var"
## **Aydın Mirzəzadə:** "Onlarla cəmiyyət arasında çox böyük bir uçurum var"

**Son zamanlar Azərbaycan müxalifəti real həyatdakı fəaliyyətini virtual aləmə daşıyıb. Mübarizə daha çox sosial şəbəkələr üzərindən aparılır. Davalar, çağırışlar, hətta yığıncaqlar belə realda yox, virtualdadır. Bu da haqlı olaraq bəzi suallara yol açıb.**

Mövcud durumda demokratik düşərgənin özünü günahlandıranlar çoxluq təşkil etsələr də, burada iqtidarın rolunu önə çəkənlər də az deyil.



Tural Abbaslı



Aydın Mirzəzadə

**AĞ Partiya başqanı Tural Abbaslı** məsələni iki hissəyə ayırır: "Məsələnin biri müxalifətin aktivliyi, siyasi səhnədəki rolu, proseslərə təsir imkanıdır. Digər məsələ isə siyasi həyatda və proseslərdə virtual məkanın, sosial şəbəkələrin, ümumiyyətlə, texnoloji nailiyyətlərin roludur. Bu iki məsələni bir-birindən ayırmalıyıq. Əslində yeni innovativ texnoloji inkişaf siyasi mübarizəni daha da aktivləşdirməli və ən əsası siyasilərin xalqla kommunikasiyasını asanlaşdırmalı idi. Yəni virtual məkanın imkanları ilə real siyasi mübarizənin imkanlarını qarşı-qarşıya qoymaq doğru deyil. Həm real mübarizə metodlarının, həm də virtual məkanın öz yeri var. Ağıllı siyasilər birinin yaratdığı imkanlarla digərinin gücünü artıra bilər. Belə ki, sosial şəbəkələrin və sürətli kommunikasiya imkanlarının yaratdığı fürsətlərdən istifadə edib real siyasi həyatda güc halına gəlmək mümkündür. Təbiidir ki, bunlar arasındakı tarazlığı pozsan və birinə digərindən daha çox üstünlük versən, bu öz neqativ təsirlərini göstərəcək. Mən o zamanları xatırlayıram ki, hansısa siyasi mesajımızı cəmiyyətə çatdırmaq üçün hansı əziyyətləri çəkirdik. Çünki bütün KİV-lər tam olaraq hakimiyyətin nəzarətində idi. Bu da müxalifətin imkanlarını məhdudlaşdırırdı. Lakin sosial şəbəkələrin inkişafı və virtual məkanın imkanlarının artması informasiya sahəsində iqtidar-müxalifət imkanları nisbətən bərabərləşdirdi. Ancaq, təəssüflər olsun ki, bəziləri bu balansı tuta bilmədi və dəmək olar ki. bütün mübarizəni virtual məkana köçürdü. Bu da öz növbəsində böyük bir kütlənin passivləşməsinə və proseslərdən çəkilməsinə səbəb oldu. Baxmayaraq ki, Misirdə, Tunisdə, Liviyada, Ukraynada və s. ölkələrdə sosial şəbəkələr dəyişikliklərə səbəb oldu, bizdə isə tam əksi baş verdi. Doğrudur, müxalifətin real səhnədən virtual səhnəyə keçmə səbəblərindən biri də, bəlkə də əsas səbəbi hakimiyyətin yürütdüyü sərt və repressiv siyasət oldu. İqtidar real heç bir siyasi aksiyaya və tədbirə imkan yaratmaq istəmədi və belə cəhdlərin qarşısını güc yolu ilə aldı. Narazı elektorat da özünü sosial şəbəkələrdə realizə etməyə məhkum oldu. Bir strateji baxsaq uzaq perspektiv üçün bu vəziyyət iqtidar üçün də təhlükəlidir. Çünki cəmiyyətin bu dərəcədə real siyasi həyatdan qopması fəsadsız ötüşə bilməz. Biz AĞ Partiya olaraq hər zaman çalışmışıq ki, real siyasi mübarizə səhnəsi ilə virtual məkan arasındakı balansı qoruyaq. Bizim əsas hədəfimiz müasir texnoloji inkişafın yaratdığı imkanlardan istifadə edərək real siyasi səhnədəki rolumuzu artırmaqdır. Düşünürəm ki, hələlik nisbətən buna nail olmuşuq. Biz hər imkandan istifadə edib hakimiyyətə gəlməyə çalışacağıq".

**YAP-çı deputat Aydın Mirzəzadə:** "Bu tipli məsələlərdə aktivlik bütün dünyada var. Azərbaycan üçün də bu xarakterikdir. Amma bir məsələ var ki, sosial aktivlik real həyatdakı aktivlikdən irəli gələrək sosial şəbəkələrdə davam etməlidir. Ölkəmizdə müxalif qüvvələr həqiqətən ən çox sosial şəbəkələrdə görünürlər. Onların real həyatda insanlarla iş apardıqlarını, alternativ proqramlarını təqdim etdikləri, ölkənin inkişafı ilə bağlı düşüncələrini yaydıqlarını görmürük. Bu ilk növbədə müxalif qurumların rəhbərlərinin kabinetlərindən çıxmaq qorxuları ilə bağlıdır. Onlar insanların real qayğıları ilə tanış deyillər, insanların içərisində olmurlar, onların qayğılarını yaşamırlar. Onlarınkı ancaq kabinetdə oturmaqdan, sosial şəbəkələrdə fəaliyyət göstərməkdən, bəzi mətbu orqanlarda açıqlamalar verməkdən ibarətdir. Onlarla cəmiyyət arasında çox böyük bir uçurum var. Sual oluna bilər ki, nəyə görə cəmiyyətdə müxalifətin sosial bazaları zəifdir, yaxud insanlar onların keçirdikləri mitinqlərə nə üçün qatılmırlar, onların şüarlarını dəstəkləmirlər, partiyalara üzv olmurlar? Siyasətin qızıl qanunu var. Müxalifət o zaman güclü və səmərəli olur ki, iqtidar zəifləyir. İqtidar üzərinə düşən vəzifəni yerinə yetirdikdə, cəmiyyətin ümidləri doğrulduqda müxalifətin sosial bazası zəif olur. Prezident cənab İlham Əliyevin apardığı daxili və xarici siyasət ölkənin nüfuzunun artmasına, əhalinin sosial vəziyyətinin yaxşılaşmasına, cəmiyyət qarşısında duran problemlərin həllinə səbəb olur. Bu baxımdan insanlar bu günlərini və sabahlarını prezidentin fəaliyyəti ilə bağlayır, ona dəstək verirlər. Nəticədə prezidentə müxalif olan, onu tənqid edən insanların dəstəklənməsi baş vermir. Bunu bilən, görən müxalif liderlər, sadəcə, etiraf etməyə cəsarət tapmırlar. Özləri üçün virtual bir aləm yaradıblar, daha çox trollardan ibarət olan şəbəkə formalaşdırıblar. Sosial şəbəkə istifadəçisi kimi onların fəaliyyətini izlədikdə onları dəstəkləyən profillərin çoxunun trollar olduğunu görürəm. Eyni bir dəst-xətti, eyni düşüncəni, eyni arqumentlərin gətirildiyini görürük. Səhifələrinə daxil olanda görürsən ki, aylardır bir paylaşım belə yoxdur, dostlar şəbəkəsi də görünmür. Bununla belə öz müxalif liderlərinin səhifələrində saatlarla müxtəlif yazılar yazırlar. Onlar təkcə trollar dəstəsi yaratmayıblar, eyni zamanda insanlarda aqressiya yaradırlar. İnsanlara mədəniyyət, yaxud sivil şəkildə polemika aparmaq vərdişi yaymaq əvəzinə, onların fikirlərini bölüşməyənlərə qarşı nifrət, düşmən əhvali-ruhiyyəsi formalaşdırmağa çalışırlar. Bu da onların sosial bazalarını daha da zəiflədir. Cəmiyyət onların problemlərini həll edən, qayğıları ilə yaşayan siyasi qüvvəni, lideri dəstəkləyir. Belə bir hakimiyyətin isə daha çox qalmasında maraqlıdırlar".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**



# Qanadlı düşüncələr

Zamin HACI
zaminhaci@gmail.com

"Əgər insanlar hamısı eyni qaydada dəli olsaydılar çox yaxşı yola gedərdilər"

*(Frensis Bekon)*

**Qazaxıstanda prezident seçkiləri olub, bundan sonra camaat saxtakarlığa etiraz edib, polis 700-dən çox adamı dama basıbdır. Britaniyanın BBC agentliyinin rusdilli saytı isə bu haqda xəbərə "Azərbaycanda yenə Tokayev qalib gəldi" başlığı qoyub. Bir az gülməli yanlışlıqdır, ancaq nə ziyanı? Kefimiz açıldı. Atalar demişkən, yanlış da bir naxışdır.**

Eyni zamanda, BBC niyə məhz bizim adımızı ora yanlış yazır? Örnək üçün, Almaniya, Amerika, Fransa-zad yazmır? Çünki bizim şöhrətimiz dünyaya yayılıbdır. Bu saat ingilislər dünyada hara baxsalar Azərbaycanı görürlər. Bəs necə. Zarafat deyil, Cahangir xanımın arvadının orda 1 milyon dollara oyuncaq almağından, keçmiş vergilər nazirimiz Fazil müəllimin az qala Londonun yarısını kürəkəniylə birgə işlətməyindən danışmayan qalmadı. Keçən ay iki ingilis komandası futbol oynamağa stadion tapmayıb Böyük Şora gəlmişdilər. Sözgəlişi, Fazil müəllimin çoxlu şirkətlərinin, dükan-bazarının olması sevindirici haldır, yoxsa dünya elə fikirləşərdi bunlar acından ölürlər, nazirə bir budka açmağa da imkan verməyiblər. İndi isə gör özündə o qədər qalıbsa, vaxtilə vergiyə nə qədər yığıbdır! Dövlət belə möhkəmlənir və qüdrətli olur.

Qayıdıram Qazaxıstan əhvalatına. Açığı, mən BBC-dən qabaq ordakı prezident seçkilərini izləyəndə doğma Azərbaycanımızı xatırlamışdım. 90-lardakı o məhşur mahnıda necə deyilirdi? "Özbək, türkmən, azər, qazax, bunlar bir soydu". Doğrudan da, Nursultan şəhər polisinin əməkdaşları dördləşib bir nəfəri əl-ayağından tutub havada apararkən adamın ürəyi açılırdı. Sanki adam havada uçur. Baş qabaqda, ayaqlar arxada, əllər yana açılmış... Gözəl gələcəyə uçuşun mənzərəsi idi. Şübhəsiz, belə uçuşlar qazax qardaşlarımızı xoşbəxt gələcəyə aparır. Bizdə də qabaqlar hər seçkidən sonra belə uçuş mənzərələri olardı. Ancaq daha olmur, çünki biz uçub-uçub zirvəyə çatmışıq. Nə qədər müxalifətçimiz isə belə fotolar hesabına uçub Avropada mühacir olublar. Kim deyir insanlar uça bilmir? Yalan deyir. Qanadlandıran, həvəsləndirən lazımdır. Hətta qanadı qırılan quş da uça bilər. Bu haqda hansısa kitabda oxumuşdum, düzü, indi yadıma gəlmir. O cümlədən, tək qanadla uçmaq mümkündür. Bu haqda bir 18 plyus Şəki lətifəsi var, bilənlər bilməyənlərə danışsın, mən qəzetdə yaza bilmərəm, uşaq-muşaqlar da oxuyurlar. Tətilə çıxsaydılar yenə arxayın yazardıq, ancaq dərs ilinin 15 iyuna uzadılması projesinə görə hələ məktəbə gəlib-getməlidirlər. 15 gündür müəllimlər dərslikləri yığıb atıb podvala, hər sinifdə iki-üç sınıq-salxaq şagird qala ya qalmaya, ancaq məktəblər bağlanmır. Sanki bizdə kimsə acığa düşüb bu mənasız qaydanı ləğv eləmir. Guya həmişəki kimi 1 sentyabrda başlayıb 25 mayda, lap olsun 31 mayda dərslər bitsə, nə fərqi olacaqdı?

Əlbəttə, bu da inkişafla bağlı şeydir. Dərs ili yuvarlaq olsa, uşaqlarda riyaziyyat biliyi zəifləyər. Ancaq 15-indən 15-nə gözəl olur. 15 müqəddəs rəqəmdir, deyilənə görə hər il ayın 15-də Darbalaq pirində 15 dəfə dövr edən zənən xeylaqlarının mütləq oğlan uşağı doğulur. Heç UZİ-yə saldırmağa ehtiyac olmur. Üstəlik, 40 dərəcə istidə pəncərəsi intiharı önləmək üçün bağlanmış sinifdə dərs oxuyan uşaqlar böyüyəndə Nobel mükafatı alırmış.

Hələ bu harasıdır, deyir uşaqlar universitetə imtahan veriblər, ballarını toplayıblar, ancaq orta məktəbi də bitirməyiblər. Gör nə gözəl sistemdir, adam həm şagird, həm tələbə olurmuş. Diplomunu ver, lap magistr olsun, kimə nə dəxli? Bizim öz mentalitetimiz, mənəvi dəyərlərimiz var. 80-ci illərdə Narxozun bir rektoru var idi, raykom katibi dostlarının məktəbli uşaqlarına ad günlərində diplom hədiyyə edərdi.





# Ankara və Moskvanın qəliz geosiyasi oyunu: Ermənistanı gözləyən tale

**Rusiyalı tanınmış hərbi ekspert işğalçı ölkənin hərbi gücünü sıfırladı və erməniləri qorxutdu:** "Türkiyənin altında qalarsınız, Azərbaycan isə..."; işğalçıya qarşı Bakı-Ankara və Bakı-Ankara-Tiflis hərbi əməkdaşlıq formatları güclənir...

**Naxçıvanda Azərbaycan və Türkiyənin növbəti birgə taktiki təlimləri başa çatdı. Budəfəki təlimin bir özəlliyi də onu qardaş ölkənin müdafiə naziri Hülusi Akarın başçılıq etdiyi nümayəndə heyətinin izləməsi oldu. Bundan əlavə, iki ölkənin müdafiə idarələrinin rəhbərləri - Zakir Həsənov və Hulusi Akar ilk dəfə olaraq, bilavasitə Ermənistanla sərhəddə - İrəvanın cəmi bir neçə on kilometrliyində görüşdülər.**

Gözlənildiyi kimi, həm ortaq təlimlər, həm də Türkiyə müdafiə nazirinin bu təlimləri şəxsən izləməsi və Ermənistanla sərhəddə azərbaycanlı həmkarı ilə regionda "müharibə ssenarilərini" müzakirə eləməsi düşmən tərəfdə ciddi təlaş yaradıb. Bunu erməni KİV-lərindəki yazı və müsahibələrdən aydın görmək olar.

*****

Məsələn, "Yeni Müsavat"ın məlumatına görə, 1in.am saytında siyasi şərhçi Aram Sərkisyan Naxçıvandakı hərbi təlimlər haqda yazıb: "Azərbaycan və onun müttəfiqi Türkiyə ikitərəfli hərbi-siyasi əlaqələri dərinləşdirməkdə davam edir. Son vaxtlar şərq və şimal qonşuları daha böyük hərbi fəallıq göstərməkdədir. Bu da İrəvanda narahatlıq doğurmaya bilməz. Türkiyə və Azərbaycan qısa zaman içində ikinci ortaq təlim keçirir. Ötən dəfə - mayın 1-dən 3-dək olan təlimlər "Mustafa Kamal Atatürk - 2019" kod adı ilə keçirilmişdi. Ermənistanda daxili siyasi vəziyyətin pozulması təhlükəsinin yarandığı durumda Azərbaycan və Türkiyənin hərbi fəallığı, təbii ki, sülhpərvər mahiyyət daşımır".

Təlimləri şərh edən erməni general, Qarabağdakı müharibənin iştirakçısı, Ermənistanın sabiq müdafiə naziri və Baş Qərargah rəisi Norat Ter-Qriqoryants isə hesab edir ki, Azərbaycan müharibəyə başlamaq üçün əlverişli bəhanə axtarır. O, həmçinin istisna eləmir ki, Azərbaycan tərəfi hərbi təlim adı ilə Dağlıq Qarabağ və Ermənistanla sərhədə hücum əməliyyatları aparmaq üçün ağır hərbi texnika yığmaqla məşğuldur. "Azərbaycan tərəfi bu fənddən artıq bir dəfə - 2016-cı ilin aprelində istifadə edib", - deyə o əlavə edib.

"Türkiyə və Azərbaycanın Naxçıvanda keçirdiyi hərbi təlimlərə Ermənistan-İran birgə təlimləri ilə cavab vermək lazımdır". Belə bir absurd ideya ilə isə erməni politoloq Sergey Şakaryans İrevanda keçirdiyi mətbuat konfransında çıxış edib. Şakaryantsa görə, təlimlərin başa çatmasından sonra Türkiyə ordusunun bölmələrindən birinin Naxçıvanda qalması istisna deyil. Onun fikrincə, Azərbaycan-Türkiyə hərbi təlimlərinə Naxçıvanın hər iki tərəfində Ermənistan-İran birgə hərbi manevrləri ilə cavab vermək lazımdır. "Amma hökumət çətin ki, bu addıma getsin" - Şakaryants bu ideyasının real olmadığını dərhal etiraf edib.

*****

1 in.am portalı rusiyalı tanınmış hərbi ekspert Aleksandr Xramçixinin də mövqeyini öyrənib. Ancaq alınan cavablar ermənilər üçün məyusedici olub. "Yeni Müsavat" xəbər verir ki, öncə Azərbaycan və Türkiyənin tez-tez ortaq təlimlər keçirməsinin səbəbinə toxunan hərbi ekspert deyib: "Görünür, onlar hərbi əməkdaşlığı ciddi şəkildə möhkəmlədirlər ki, ola bilsin, əlverişli məqam yetişən kimi ona real məzmun versinlər. Müşahidələrimə görə, bu iki ölkə az-çox real ssenarilər üzrə təlimlər keçirir. Yəni bu, terrorizmlə mübarizə məşqi deyil. Əgər təlimlər Azərbaycan-Türkiyə formatında keçirilirsə, o zaman aydındır ki, onlar üçün yeganə təsəvvür edilən düşmən Ermənistandır. Müvafiq surətdə buna Ermənistanın necə reaksiya verməli olduğu haqda İrəvanın yerinə heç nə deyə bilmərəm. Ancaq, əlbəttə ki, ən azından gərginləşmək üçün əsas var".

Rusiyalı təhlilçi ortaq təlimlərin intensivləşməsinin Ermənistan daxili situasiya və İrəvanla Xankəndi arasında münasibətlərin soyuması ilə bağlı ola biləcəyini də istisna eləmir: "Birincisi, həqiqətən də onlar (Azərbaycan və Türkiyə - "YM") situasiyaya xüsusi olaraq hazırlaşır. O anlamda ki, Ermənistan daxilində qarışıqlıq yaranan kimi ondan yararlansınlar. İkincisi, bəli, bu versiyanın da yaşamaq hüququ var ki, təlim adı ilə səfərbərlik tədbirləri həyata keçirilir".

Bu yerdə erməni portalının əməkdaşının Xramçixinə ünvanladığı "Bu gün Türkiyə-Rusiya əlaqələri nə qədər yaxşı olsa da, Ankara bu regionda Moskvanın köhnə rəqibidir. Azərbaycan-Türkiyə əlaqələrinin dərinləşməsi, türklərin Naxçıvanda möhkəmlənməsi, sizcə, Rusiyanı narahat etməməlidir" təxribatçı sualına hərbi ekspert belə cavab verib: "Mən Kremldə kiminsə yerinə cavab verə bilmərəm. Bu gün Rusiya Türkiyə ilə çox mürəkkəb bir geosiyasi partiya oynayır, hansı partiyanın ki, çoxlu tərkib hissələri var. İlk növbədə, əlbəttə ki, Suriya mövzusu diqqətdədir, nəinki diqqətin periferiyasında olan Qafqaz".

Türkiyədən Ermənistana təhlükənin nə dərəcədə real olması ilə bağlı sualın cavabında isə analitik bir növ Rusiyanın vassal ölkə üçün önəmini böyüdərək və bir az da erməniləri qorxudaraq bildirib ki, Türkiyə təhlükəsi Ermənistan üçün əsas təhlükədir: "Ona görə ki, əgər Türkiyə olmasaydı, bəlkə də Ermənistan Azərbaycan təhlükəsi qarşısında hətta Rusiyasız birtəhər tab gətirə bilərdi. Ancaq Türkiyə təhlükəsini Rusiyasız dəf eləmək söhbət mövzusu belə ola bilməz. Ermənistan üçün Türkiyə təhlükəsi bu gün qat-qat mühümdür, nəinki Azərbaycandan olan təhlükə".

*****

Əslində nə Azərbaycan, nə də Türkiyənin Ermənistana hücum etmək niyyəti yoxdur. Bakı və Ankaranın tək hədəfi İrəvanın özünü regionda beynəlxalq normalara uyğun aparması və qonşu ölkələrə əsassız torpaq iddialarına son qoyaraq, nəhayət, dinc yanaşı yaşmağı tərcih eləməsidir. Azərbaycan və Türkiyənin hərbi təlimlərində strateji və son məqsəd bundan ibarətdir.

Naxçıvandakı təlimlərə gəlincə, bu təlimlərlə yanaşı, ümumiyyətlə, bu muxtar bölgədə dislokasiya edilən Əlahiddə Ümumqoşun Ordunun döyüş imkanları son illər ciddi ölçülərdə artması, onun ən müasir silah-sursat və texnika ilə təchiz edilməsi Ermənistan siyasi dairələrində həqiqətən təşvişlə izlənir. Və artıq birinci dəfə deyil ki, erməni ekspertlər və siyasətçilər Naxçıvanda baş verənlərə görə həyəcanlı açıqlamalar verirlər.

Türkiyə və Azərbaycan habelə qonşu Gürcüstanla "üçlü format"da hərbi əməkdaşlığı davam etdirir. Bu da ən əvvəl işğalçı Ermənistana mesajdır ki, torpaq iştahını özündə saxlasın. Çünki İrəvanın hər üç ölkəyə əsassız ərazi iddiası var və bunu gizlətmir də. "Üçlü" formatda hərbi əməkdaşlığı isə ilk növbədə Azərbaycan, Türkiyə və Gürcüstanın regiondakı milli təhlükəsizlik maraqları, buradan keçən strateji əhəmiyyətli nəqliyyat və boru xətlərinin təhlükəsizliyi diktə edir və hansısa 4-cü ölkəyə, Rusiyaya qarşı yönəlməyib. Məsələn, keçən il boru kəmərlərinə qarşı mümkün təxribatların önlənməsi ilə bağlı 3 ölkənin xüsusi təyinatlılarının birgə təlimləri keçirilmişdi.

Yeri gəlmişkən, bu gün - iyunun 12-də Qəbələdə Azərbaycanın müdafiə naziri Zakir Həsənov, Türkiyənin müdafiə naziri Hulusi Akar və Gürcüstanın müdafiə naziri Levan İzoriya arasında üçtərəfli görüş keçiriləcək. "Yeni Müsavat" Müdafiə Nazirliyinin saytına istinadən xəbər verir ki, görüşdə üçtərəfli formatda əməkdaşlığın inkişaf etdirilməsi, regional layihələrin təhlükəsizliyinin təmin olunması və bir sıra digər məsələlər barədə fikir mübadiləsinin aparılacağı gözlənilir.

Göründüyü kimi, hədəflər sırasında üç ölkənin ortaq layihələri də var. Bu da ölkələrin milli təhlükəsizliyi ilə birbaşa bağlıdır və Ermənistana onun normal inkişaf yoluna çıxması üçün verilən daha bir ayıldıcı mesajdır...

**❑ "Yeni Müsavat"ın analitik xidməti**

YENİ MÜSAVAT
N 125 (7295) 12 iyun 2019

# Qazaxıstan prezidentinin Ermənistanla bağlı mövqeyi etiraz doğurdu

**Fazil Mustafa:** "O halda Nazarbayevin oxuduğu tarix kitabını yenidən oxumasına ehtiyac var"
**Fəzail İbrahimli:** "Əgər dövlət başçısı həqiqətən də belə bir ifadə işlədibsə..."
**Elman Nəsirov:** "Qazaxıstan və Ermənistan arasında tarix, dil bağlılığının olması barədə dedikləri anlaşılmazdır"

**Qazaxıstanın yeni seçilən prezidenti Qasım-Jomart Tokayev keçirdiyi mətbuat konfransında ölkəsinin Ermənistanla münasibətlərindən danışıb.**



Tokayev bildirib ki, onun Ermənistana böyük simpatiyası var. "Bu yaxınlarda mən Nikol Paşinyanla görüşdüm. Yeri gəlmişkən, 5 dəqiqədən sonra mənə zəng etməlidir. Bildiyim qədərilə təbrik etmək üçün. Biz konkret layihələrlə əməkdaşlığımızın möhkəmlənməsi üzərində razılaşdıq"-deyə Tokayev bildirib. Ermənistana böyük simpatiya ilə yanaşması Tokayevin şəxsi işidir. Bu mənada onun rəyini dəyişmək fikrində deyilik. Lakin bu barədə danışarkən qazax prezident heç olmasa Ermənistanın işğalçı dövlət olduğunu və Azərbaycan ərazilərini 30 ilə yaxındır işğalda saxladığını nəzərə almalıydı. Həm də ona görə ki, söhbət Qazaxıstanın da daxil olduğu türkdilli ölkələr ailəsinin bir üzvündən gedir. Qazaxıstanla Azərbaycanı bağlayan tellər çoxdur, burada tarixilik, dil, din, adət-ənənə faktorlarını qeyd etmək olar. Elə bu əlaqələr səbəbindəndir ki, qazaxlarla azərbaycanlılar arasında daim dostluq, qardaşlıq münasibətləri olub. Lakin Qazaxıstan və Ermənistan arasında dil və ya tarixilik baxımdan bənzərliyin olduğunu iddia etmək absurddur. İlk baxışda adama elə gəlir ki, qazax prezident Ermənistanı hansısa başqa türkdilli ölkə ilə qarışıq salıb.

Bu barədə məlumatın erməni mediası vasitəsilə yayılması o ehtimalı yaradır ki, ola bilsin qazax prezidentin fikirləri təhrif edilib. Aprel döyüşlərindən sonra İrəvanda keçirilməli olan KTMT-nin toplantısına gəlməkdən imtina edən Nazarbayevin varisinin belə bir mövqe sərgiləməsi ən azı ayıbdır. Üstəlik, Qazaxıstan KTMT-nin baş katibi ilə bağlı məsələdə də Ermənistanı peşman edən mövqe sərgilədi. Hətta bunun qarşılığında N.Paşinyan hökuməti Qazaxıstana qarşı həqarətli mövqe də sərgiləmişdi. İndi Tokayev bütün bunlardan necə bixəbər ola bilər?

**Deputat, BQB başqanı Fazil Mustafa** "Yeni Müsavat"a açıqlamasında məsələyə kəskin münasibət sərgilədi: "Qazaxıstanın yeni prezidenti əgər bunu söyləyibsə, o halda Nazarbayevin oxuduğu tarix kitabını yenidən oxumasına ehtiyac var. Qazax türkdürsə, onun ermənilə hansı dil bağı ola bilər? Hər bir halda bu səhvini düzəltməlidir, əks halda, qazax ziyalıları tərəfindən əminəm ki, bu yanlışı cavabsız buraxılmayacaq".

**Tarix elmləri doktoru, deputat Fəzail İbrahimli** Qazaxıstan prezidentinin belə bir fikir səsləndirdiyinə inanmaq istəmədiyini bildirdi: "Bu məsələlər kifayət qədər aydınlaşdırılmalıdır. Əgər dövlət başçısı həqiqətən də belə bir ifadə işlədibsə, o, ardınca daha ciddi və aydın açıqlama verməlidir ki, düşündüklərinin mənbəyi hardandır? Onda Azərbaycan tərəfi, təbii ki, özünün reaksiyasını bildirəcək, istər mətbuat səviyyəsində, istərsə də digər səviyyələrdə". Tarixçi professor qeyd etdi ki, Orta Asiya dövləti olan, türkdilli dövlətlər qrupuna daxil olan Qazaxıstanın Ermənistanla dil, tarix bənzərliyinin olması barədə fikirlər ən azı təəccüb doğurur: "Bizim türkdilli dövlətlər qrupu, Parlament Assambleyası var. İndi necə oldu bunlar dil baxımından Ermənistana yaxın oldu? Hardandır bu tarixi birlik? Mən güman etmirəm ki, qazax prezident belə bir fikir səsləndirib".

**Deputat Elman Nəsirov** isə "Yeni Müsavat"a bu barədə danışarkən dedi ki, Azərbaycan-Qazaxıstan münasibətləri strateji tərəfdaşlıq münasibətləridir: "Xüsusilə də hələ sovet dönəmində ulu öndər Heydər Əliyevlə Nursultan Nazarbayev arasında çox sıx dostluq münasibətləri olub. Hətta Nazarbayev ulu öndəri özünün ağsaqqalı hesab edirdi. Nazarbayev də hakimiyyətdə olduğu 30 il ərzində daim Azərbaycanı müdafiə edib. Xüsusilə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsində birmənalı olaraq Azərbaycanın haqq işini müdafiə edib və bunu həm beynəlxalq güclərə bildirib, eyni zamanda Ermənistan rəhbərliyinin iştirak etdiyi tədbirlərdə də açıq şəkildə Azərbaycanın mövqeyini dəstəkləyib. O, münaqişənin yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli ideyasını müdafiə edib. Eyni zamanda Avrasiya İqtisadi İttifaqına Ermənistanın Dağlıq Qarabağla birlikdə daxil olmaq niyyətinin də qarşısının alınmasında Nursultan Nazarbayevin çox böyük xidmətləri oldu. Bu səbəbdən də Azərbaycanda ona çox böyük dəyər verirlər. Dövlətimizin başçısı cənab İlham Əliyev 2017-ci ilin aprelində onu Azərbaycanın ən yüksək dövlət mükafatı olan Heydər Əliyev Ordeni ilə təltif etdi". E.Nəsirov qeyd etdi ki, Qazaxıstanın yeni seçilmiş prezidenti Tokayev prinsip etibarilə Nazarbayevin varisidir və onun siyasətini davam etdirməsi məntiqlidir, ağlabatandır: "Bizdə əminlik var ki, o, indiyədək formalaşmış Azərbaycan-Qazaxıstan münasibətlərinin daha da inkişafı, dərinləşməsi yolunda ciddi addımlar atacaq. Lakin onun Qazaxıstan-Ermənistan münasibətləri ilə bağlı səsləndirdiyi son fikirlər, təbii ki, birmənalı qarşılanmayıb. Xüsusilə də Qazaxıstan və Ermənistan arasında tarix, dil bağlılığının olması barədə dedikləri anlaşılmazdır. Düzü, şəxsən mən bu fikirlərin qazax prezidentə məxsus olmasına inanmaq istəmirəm. Çünki həqiqətən də bizim münasibətlərimiz ən yüksək səviyyədə olub. Əksinə, Ermənistan-Qazaxıstan münasibətləri barədə qətiyyən bunu söyləmək mümkün deyil. Birdən-birə nə baş verdi, nədən o, belə fikirlər söylədi, cavab verməyə çətinlik çəkirəm. Məncə, bu məsələdə bir az gözləmə mövqeyində dayansaq, daha yaxşı olar". Deputat bununla yanaşı, hesab edir ki, məsələyə rəsmi səviyyədə aydınlıq gətirilməsinə ehtiyac var: "Dediyim kimi, Tokayev Nazarbayevin siyasi varisidir və onun siyasətini davam etdirməlidir. Amma bu davranış həmin siyasətə uyğun gəlmir. Belə olan vəziyyətdə, mənə elə gəlir ki, müəyyən anlaşılmazlıqlar var. Xüsusilə indiki informasiya əsrində bir çox hallarda informasiyanı dezinformasiya kimi yaymaq meyilləri də güclüdür. Ona görə də hesab edirəm ki, tələm-tələsik bu məsələyə qiymət vermək düzgün olmazdı. Qazaxıstan Prezident Administrasiyasının mətbuat katibliyi Bakıdakı səfirlik bu məsələ ilə bağlı daha dəqiq mövqe ortaya qoya bilər. Yalnız bundan sonra dəqiq və səhih fikir söyləmək mümkündür".

Hələlik nə səfirlik, nə də Qazaxıstan PA yayılan fikirlərlə bağlı mövqeyini açıqlamayıb. Susublarsa, demək yayılan fikirlər Tokayevə məxsusdur. Çox təəssüf...Ermənistanla Qazaxıstan arasında tarixi oxşarlığın olduğunu iddia edən prezident gərək biləydi ki, Ermənistan cəmi 101 il əvvəl Azərbaycanın tarixi torpaqlarında yaradılmış dövlətdir. Onda hansı oxşarlıqdan söhbət gedə bilər?..

❑ **Cavid TURAN,**
**"Yeni Müsavat"**

---

# Qarabağda dəfn edilən kürdəmirli ər, Kürdəmirdə dəfn edilən qarabağlı arvad



**Xalid KAZIMLI**

**Bilmirəm, fikir vermisinizmi, ölkədə müharibə çağırışları artıb. Əvvəllər də bu kimi çağırışlar vaxtaşırı olurdu, amma indiki qədər şiddətli olmurdu.**

Buna səbəb düşmənlərimizin həyasızlığı, təxribatıdır. Gəlirlər, Şuşada yallı oynayırlar, çempionat keçirirlər, Cıdır düzündə fotosessiya çəkirlər, festival təşkil edirlər, hər hərəkətləri ilə bizə yandıq verirlər.

Qarabağ müharibəsinin zərərçəkənlərinin, torpaq itkisini sinirə bilməyənlərin, məğlubiyyətlə barışmaq istəməyənlərin qanı bu kimi acıqvermələri götürmür.

Tam təbiidir. Normalda bu davranışı sinirmək mümkün deyil. Bizdən çox məsələdə zəif olan bir dövlətin rəsmi və qeyri-rəsmi adamlarının bu cür "əcəb eləmişik, əlimizin içindən gəlib, ovcumuzda bir noxud var, onunda içindən gəlib" mesajı vermələri onların qaşınması deməkdir.

Ermənilərin bu hərəkəti rəqibinə qəfildən bir şillə vuraraq qaçıb güclü dayısının arxasında gizlənən, hərdən başını çıxarıb, "get, o vurduğum şilləni yavanlıq elə" deyən cığal və yaramaz uşağın davranışına bənzəyir. "Dayı" da qaya kimi durub, deyir, kimin hünəri var, bacıoğluya yan baxsın.

Gerçəklik budur. Ona görə də qisas hissi ilə alışıb-yananlarımız, bu təhqiri yemək istəməyən, girəvələyib o "cığal uşağ"ın qulağının dibindən bir tərəkəmə şapalağı tutuzdurmağa çağıranların sayı gündən-günə artır. Müharibə çağırışları bu səbəbdən şiddətlənib.

Müharibə isə çox pis şeydir, çox dəhşətlidir. Təsəvvürə gəlməyəcək dərəcədə.

O gün dostlardan biri - jurnalist həmkarım Aydın Canıyev paylaşmışdı, skrin-şot edib saxlamışam. Belə bir dəhşətli statistika var:

Almaniya-SSRİ müharibəsində 46 milyon 250 min insan yaralanıb. 775 min cəbhəçi evə paralanmış kəllə sümüyü ilə qayıdıb. Sifəti dağılmış, eybəcər hala düşmüş insanların sayı 501 min 342 nəfər olub. 157 min 565 nəfər boynundan yaralanıb və boyunları əyri qalıb. Qarnı parçalanmış döyüşçülər 444 min 46 nəfər, çanaq sümüyü zədələnənlər 630 min 259, onurğasından zədə alanlar 143 min 241, cinsi orqanlarını itirənlər 28 min 248 nəfər olub. 3 milyon 147 döyüşçü müharibədən tək qolla, 1 milyon 10 min əsgər hər iki qolsuz qayıdıb. Tək ayaqla qayıdanlar da az olmayıb - 3 milyon 255 min nəfər. Hər iki ayağını itirənlər 1 milyon 121 min nəfər olub. 4 min 189 nəfər də əl və ayaqlarını qismən itirib. Gözünün birini itirənlərin sayı 155 min, müharibədən hər iki gözündən əlil qayıdanlar isə 54 min nəfər olub.

Dəhşətli statistikadır. Oxuyub keçməklə deyil. O adamların beşinin həyat hekayətini, şəxsi faciəsinə dair söhbətini dinləyib dözmək mümkün deyil.

Müharibədən kor qayıtmış kişilərdən biri də bizim kənddə yaşayırdı. Adı Qoca idi. O, əslində kəndçimiz deyildi, Kürdəmirdən idi. Müharibədə kontuziya alaraq evinə kor qayıtmış Qocanı bu halda görən arvadı onunla yaşamaqdan imtina edibmiş. O da pay-piyada yola düşüb, 3-4 gündən sonra biz tərəflərə gəlib çıxıb. Bir dəyirmançı onun bu halını görüb, rəhmi gəlib, yanında saxlayıb. Bir səhər yuxudan oyananda Qoca görüb ki, gözü açılıb, görür. Bundan sonra o, özünə yeni bir həyat qurmağa qərar verib və Kürdəmirə qayıtmayıb. Yolu bizim kəndə düşüb və burada Ceyran adlı qızla ailə qurub. Oğlu dünyaya gəlib, adını Ağaverdi qoyublar.

Mən Ağaverdini görəndə o, məndən 15 yaş böyük bir adam idi və gözünün biri yox idi. Danışırdılar ki, Ağaverdi uşaq vaxtı qoşalülə tüfəngin açılmayan patronunu biz vasitəsilə qurdalayanda güllə açılıb, sol gözünü çıxarıb. İşə baxın, kor atanın gözü açılıb, əvəzində oğul gözünün birini itirib. Ağaverdi Bakıda gözündən müalicə alanda təsadüfən atasının kəndindən olan bir nəfərlə eyni palatada qalıb və onlar söhbət əsnasında qohum çıxıblar. O kənddə hamı elə bilirmiş ki, kor Qoca çoxdan ölüb. Bundan sonra əlaqə yaranıb, gediş-gəliş başlayıb.

Kürdəmirdə doğulan, 41-45 müharibəsinin öz doğma kəndindən didərgin saldığı Qoca bizim kənddə rəhmətə getdi və orada dəfn edildi. Qarabağ müharibəsi başlananda və biz kəndimizdən qaçqın düşəndə Ağaverdi anasını da götürüb atasının kəndinə getdi və Qarabağda doğulmuş Ceyran arvad da Kürdəmirdə rəhmətə getdi və orada dəfn edildi. Beləcə, ər arvadın kəndində, arvad isə ərinin kəndində uyuyur. Mistikadır, nədir...

Müharibə budur - başdan-başa ağrı-acı, faciə, iztirab, mərhumiyyət, qüssə-kədər.

Amma ermənilərin Şuşada, bizim kənddə qol götürüb oynaması daha böyük faciədir, ağrı-acıdır, iztirabdır. Dözmək olmur...

YENİ MÜSAVAT
N 125 (7295) 12 iyun 2019



# Fazil Məmmədovun velosiped biznesi də batır

## "İsma Bikes"in mağazaları fəaliyyətini dayandırıb, istehsal isə...

**Havalar isindikcə Bakıda velosiped sürənlərin sayı da artır. Paytaxtda velosiped yolu olmadığı üçün velosipedçilərə də daha çox bulvar ərazisində rast gəlmək mümkündür. Onlar ən çox xaricdə istehsal edilən velosipedlərə üstünlük verirlər. Ancaq...**

2016-cı ilin avqustunda İsmayıllının Diyallı kəndi ərazisində "İsma Bikes" velosiped istehsalı zavodunun açılışı oldu. Açılışına prezident İlham Əliyevin də qatıldığı zavodun istehsal gücünün ildə 20-30 min velosiped olduğu bildirildi. Zavod haqqında məlumatda qeyd olunurdu ki, müəssisə Bolqarıstan, Danimarka, Niderland, Çin və Türkiyə istehsalı olan avadanlıqlarla təchiz edilib və zəruri infrastrukturu ilə Qafqazda yeganə olan bu zavodun məhsulları yüksək keyfiyyəti ilə seçiləcək. İddialara görə, bu biznes sabiq vergilər naziri Fazil Məmmədovun nəzarətindədir.

Bəs hazırda bazarda "İsma Bikes" velosipedlərinə rast gəlinirmi?

"Yeni Müsavat"ın reportyor qrupu olaraq "İsma Bikes" axtarışına çıxıb, şəhərdə bir neçə velosiped mağazasına baş çəkdik. Mağazalarda olduğumuz zaman maraqlı məlumatlar əldə etdik.

Əvvəlcə onu qeyd edək ki, Bakının kənar ərazilərində, bazarlarda satılan velosipedlərin əksəriyyəti Çin istehsalıdır. Böyüklər üçün olan (26-lıq) bu velosipedlərin qiyməti əsasən 180 manatdan başlayır. Uşaqlar üçün olan velosipedlər isə 30 manatdan başlayaraq, formasına və keyfiyyətinə görə bir neçə manat bahalaşan qiymətlə satılır. Bu mağazaların heç birində "İsma Bikes" velosipedlərinə rast gəlmədik. Satıcılar bildirdilər ki, belə velosipedlər yerli istehsal olsa da, qiyməti olduqca bahadır. Ona görə də satmaq sərf eləmir. Satıcılar onu da qeyd etdilər ki, Bakıda velosiped yolu olmadığı üçün Çin istehsalı olan mallar belə zəif satılır. Satıcı Rəhman Bayramov aşağıdakıları söylədi:

"Paytaxtda velosipedi olanlar belə sürməyə yer tapmırlar. Çünki illərdir velosiped yolunun çəkiləcəyi ilə bağlı xəbərlər yayılsa da, nəticə görünmür. Ona görə də camaat velosiped almır. Ən çox satdığımız uşaq velosipedləridir. Böyüklər üçün olan velosipedləri alanlar da elə yeniyetmələrdir. Birinci küçəni çəkmək lazımdır, sonra velosiped istehsalı ilə məşğul olmaq gərəkdir. Biz bildiyimiz qədərilə Bakıda "İsma Bikes"in 2 mağazası olub. Onlar da hazırda işləmir. Həmin mağazalardan








biri Heydər Əliyev prospektində, düz yolun kənarında yerləşirdi. Elə bir yer idi ki, avtomobili saxlamaq mümkün deyildi. Magistral yolun kənarında bu cür mağazanın effekti olmur. Hazırda həmin mağaza bağlanıb. İkinci mağaza da metronun "20 Yanvar" stansiyasının yaxınlığında yerləşirdi. Orada da iri mağaza var idi. Bu ildən həmin mağaza da fəaliyyətini dayandırıb".

Deyilən faktı yoxlamaq üçün Heydər Əliyev prospektinə yollandıq. Öyrəndik ki, doğrudan da "İsma Bikes"in mağazası fəaliyyətini dayandırıb. Mağazanın yerləşdiyi obyekt isə icarəyə çıxarılıb.

"İsma Bikes"in sosial şəbəkələrdə də səhifələri mövcuddur. Həmin səhifələrdə qoyulan nömrələrlə əlaqə saxlamağa çalışdıq. Lakin heç bir nömrəyə zəng çatmadı. Bundan əlavə, zavodun saytı da tam işlək vəziyyətdə deyil. Satıcılardan öyrəndik ki, Azərbaycana gətirilən velosiped detallarına heç bir gömrük rüsumu tətbiq edilmir. Yəni ölkəyə gətirilən velosiped detallarının fantastik dərəcədə bahalaşması üçün real səbəb yoxdur. "İsma Bikes" velosipedləri də xaricdən gətirilən detallar əsasında İsmayıllıda yığılırdı. Lakin buna baxmayaraq, velosipedlərin qiyməti xaricdən gətirilən brend məhsullardan heç də ucuz deyildi. Bu velosipedlər 250 manatdan başlayaraq, 700-800 manata qədər dəyişən qiymətlərlə satılırdı. "Gənclik Mall"da xaricdə istehsal olunan velosipedlər satılır. Onlardan bəzilərinin qiymətlərini təqdim edirik.

Məsələn, Fransa istehsalı olan velosipedlərin qiyməti 650 manatdan başlayır. Almaniya istehsalı olan velosipedlərin ən ucuzunu 1200 manata əldə etmək olar. Mağazadakı mütəxəssislər bildirdilər ki, qiymətlər əsasən materiala (alüminium) görə dəyişir. Almaniya velosipedlərinin baha olmasının səbəbi də məhz materialın keyfiyyətli olmasıdır. Bildirdilər ki, onlar yerli istehsalın satışına yer vermirlər. Ona görə də İsmayıllıdakı zavodun istehsalı barəsində məlumatlı deyillər.

Qısa olaraq qeyd edək ki, velosipedin gövdəsi alüminiumdan düzəldilir. Mağazalarda velosipedin keyfiyyəti ilə maraqlanan zaman satıcılar adətən "model 6 minlik, 7 minlik alüminiumdan hazırlanıb", - deyə bildirirlər. 7 minlik alüminiuma sink və maqnezium (qismən mis) də qatılır. Bununla da pasa qarşı müqavimət artır. Alüminiumun 6000-lik ərintisinə isə silisium və maqnezium qatılır. Bunlarda isə pasa qarşı müqavimət aşağıdır. Deyilənə görə "İsma Bikes"də məhz yüksək səviyyəli alüminiumdan hazırlandığı üçün qiymətləri yüksək olub.

Bəs yerli malı haradan əldə etmək olar? 30 min velosiped hara getdi?






Bu ilin aprel ayında İSMA brendinin daxil olduğu "Synergy Group"un Marketinq direktoru Murad Mirzəyev marja.az saytına bildirib ki, Hazırda İSMA velosipedlərinin satışı zavodun dilerləri vasitəsilə həyata keçirilir: "20 Yanvar" metrostansiyası yaxınlığında yerləşən mağazamızın fəaliyyətini dayandırması ünvanın dəyişdirilməsi ilə bağlıdır. Yeni əlverişli yer müəyyən edildikdən sonra mağaza yeni ünvanda, yeni konseptdə fəaliyyətini bərpa edəcək. Heydər Əliyev prospektindəki İSMA mağazası isə dilerə məxsus idi. Dilerin verdiyi məlumata görə, həmin ünvan satış üçün əlverişli olmadığından bağlamaq qərarı verib".

Murad Mirzəyev əlavə edib ki, hazırda İSMA velosipedlərinin satışı ilə Bakı şəhərində "Maqnit" mağazalar şəbəkəsi, regionlarda isə dilerlər məşğul olurlar: "Mağazanın anbarında olan velosipedlər "Maqnit" mağazalar şəbəkəsinə təhvil verilib. Bu da bizə imkan verir ki, yeni konsepsiya, satış planları və ünvanların seçilməsi barədə rahat düşünək".

Murad Mirzəyev bildirib ki, İsmayıllı Velosiped Zavodu fəaliyyətini dayandırmayıb.

Onu da qeyd edək ki, zavodun saytında verilən məlumata görə, "İsma Bikes"in Sumqayıt, Bərdə, Naxçıvan, Xaçmazda da dilerləri var.

**Əli RAİS,**
**"Yeni Müsavat"**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 125 (7295) 12 iyun 2019

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

# Qarabağda "sürünən müharibə" - düşmənə Naxçıvan xəbərdarlığı

## Ermənistanı torpaqlarımızı işğal etdiyinə peşman eləmək zamanı çatıb; **politoloq:** "İrəvan ya bilərəkdən, ya da bilməyərəkdən hər şeyi edir ki, Azərbaycan müharibəyə başlasın..."



**Naxçıvanda iyunun 7-də başlayan Azərbaycan-Türkiyə birgə döyüş atışlı taktiki təlimi dünən başa çatıb. Təlimə 5000 nəfərədək şəxsi heyət, 200-dən artıq tank və digər zirehli texnika, 180-ə yaxın müxtəlif çaplı raket və artilleriya qurğusu, yaylım atəşli reaktiv sistemləri və minaatan, 21 ədəd təyyarə, helikopter, pilotsuz uçuş aparatı və silahlanmaya yeni daxil edilmiş müxtəlif növ müasir silah və texnika nümunələri cəlb olunmuşdu.**




Təlimdə əsas məqsəd qərargahların müştərək döyüş əməliyyatları planlarının hazırlanması, şəxsi heyətin peşəkarlıq səviyyəsinin artırılması və birgə tapşırıqları icra etmək vərdişlərinin inkişaf etdirilməsi ilə Azərbaycan və Türkiyə hərbi bölmələrinin qarşılıqlı fəaliyyətinin koordinasiyasına nail olmaq idi. Müşahidələr göstərir ki, hədəflərə tam nail olunub. Bunu ən əvvəl hər iki tərəfin hərbi rəhbərlərinin verdiyi açıqlamalar təsdiqləyir.

Bundan əlavə, diqqətçəkicidir ki, düşmən tərəfinin xüsusi narahatlıqla izlədiyi budəfəki ortaq hərbi manevrləri Türkiyənin müdafiə naziri Hulusi Akarın rəhbərlik etdiyi nümayəndə heyəti də izləyib. Naxçıvanda həmçinin Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənovla Hulusi Akar arasında görüş olub. Z.Həsənov xüsusi qeyd edib ki, Azərbaycan müdafiə qüdrətinin artırılması məqsədilə hərbi, hərbi-texniki, hərbi təhsil sahələrində Türkiyə ilə əməkdaşlığı genişləndirir və bu, regiondakı sabitliyi təmin edən əsas amillərdən biridir.

Öz növbəsində türkiyəli nazir ölkələrimiz arasında dostluq və qardaşlıq əlaqələrinin, o sırada səmərəli əməkdaşlıq səviyyəsindən məmnunluq ifadə edib. Qonaq hər iki ölkənin müxtəlif qoşun növlərinin iştirakı ilə keçirilən birgə hərbi təlimlərin, hərbi mütəxəssislərinin qarşılıqlı səfərlərinin, görüşlərinin əhəmiyyətindən danışıb. Tərəflər Naxçıvanda keçirilən "Sarsılmaz qardaşlıq-2019" Azərbaycan-Türkiyə birgə döyüş atışlı taktiki təlimində əldə olunan nəticələri yüksək qiymətləndirərək bu cür təlimlərin vacibliyini vurğulayıblar. Görüşdə regional və qarşılıqlı əməkdaşlıqla bağlı digər məsələlər barədə də ətraflı fikir mübadiləsi aparılıb.

*****

Şübhəsiz ki, son birgə təlimlər və bu təlimlərin Naxçıvanda keçirilməsi, həmçinin iki qardaş ölkənin hərbi nazirlərinin "kiçik torpaq"da bir araya gəlməsi ilk növbədə Azərbaycana və Türkiyəyə qarşı əsassız torpaq iddiası ilə yaşayan ermənilərə özlərini yığışdırmaq üçün ciddi xəbərdarlıqdır. Eyni zamanda işğalçı ölkənin gizli-açıq havadarlarına NATO üzvü Türkiyənin Qarabağ məsələsində daim ölkəmizin yanında olmasının daha bir ismarışıdır. İşğalçıya iki qardaş ölkənin ortaq xəbərdarlığıdır.

Bu xəbərdarlıq son vaxtlar düşmən tərəfin təmas xəttində fəallaşması, İrəvan rəsmilərinin həyasız bəyanatları fonunda xüsusilə mühüm əhəmiyyət daşıyır. Ermənistanın müdafiə naziri David Tonoyanın hərbçimizin qətlə yetirilməsi ilə bağlı şəxsən göstəriş verdiyini açıq bəyan və etiraf etməsi bu qəbildəndir. Azərbaycan tərəfi bu bəyanatı mütləq ciddiyə alacaq və gərəkən cavab tədbirləri görəcək. Ən yaxşı cavab isə, əlbəttə ki, işğalçı qüvvələri torpaqlarımızdan vurub çıxarmaqdır.

Aydındır ki, son hadisələr fonunda, erməni tərəfinin "bir qarış torpaq da verməyəcəyik" kimi bəyanatları fonunda işğalçı ilə sülh danışıqlarının anlamı qalmır. Azərbaycanın işğalçını güc yolu ilə cəzalandırmaqdan savayı yolu qalmayıb.

*****

"Tonoyanın Azərbaycan hərbçisinin qətlə yetirilməsi ilə bağlı göstəriş verdiyini açıq bəyan və etiraf etməsi onların işğalçılıq siyasətini bir daha gözlər önünə sərir". "Yeni Müsavat"ın məlumatına görə, bu sözləri **deputat Fazil Mustafa** axar.az-a açıqlamasında təmas xəttindəki son insidenti şərh edərkən deyib. O bildirib ki, belə təxribatlar cavabsız qalmamalı və düşmənə ağır şəkildə cavab verilməlidir:

"Ermənistan tərəfi onsuz da atəşkəs rejiminə əməl etmir. Buna görə də Azərbaycan tərəfi düşmənə daha çox zərbə endirməlidir. Biz onları torpaqlarımızı işğal etdiyinə peşman etməliyik. Müharibə gedir və müharibənin də öz qayda-qanunları var. Biz də müharibəni qaydalarına uyğun şəkildə aparmalıyıq. Düşmənin təxribatlarına lazımi cavabı vermədikcə belə hallar hələ tez-tez yaşanacaq. Çünki düşmən tərəfi öz xain əməllərinə sadiq qalıb və hər zaman belə təxribatlara əl atacaq. Buna görə də biz şəhid olan hər bir Azərbaycan əsgərinin əvəzinə on erməni əsgərini məhv etməliyik ki, onlar ordumuza qarşı təxribatlarının cavabsız qalmayacağını anlasınlar".

"Ermənistan atəşkəs rejiminin qorunub saxlanmasını, sülh danışıqlarının davam etdirilməsini istəmir". Bunu isə **politoloq Əhəd Məmmədli** deyib. Onun sözlərinə görə, Ermənistan ordusunun son təxribatları nəticəsində ordumuzun iki hərbçisinin şəhid edilməsi iki ölkə XİN rəhbərlərinin görüşü ərəfəsində qarışıqlıq yaratmaq məqsədi daşıyır.

"Paşinyanın və Tonoyanın hərəsinin bir söz deməsi şəhidlərimizi geri qaytarmayacaq. Qarabağ məsələsində düşmənlərimiz birdir və bizə itki verdirməkdə davam edirlər. Ermənistanın müdafiə naziri David Tonoyan təsdiq edib ki, Azərbaycan hərbçisinin qətlə yetirilməsi ilə bağlı şəxsən göstəriş verib. Paşinyan isə bununla bağlı təkzib verib. Bu isə onu göstərir ki, ya baş nazir ölkəni idarə edə bilmir, ya da bütün bunlar yalandır və sülh danışıqlarının imitasiyasıdır. İstənilən halda Ermənistan artıq öz yalanları ilə həmsədrləri, beynəlxalq ictimaiyyəti aldada bilmir. Erməni iqtidarı ya bilərəkdən, ya da bilməyərəkdən hər şeyi edir ki, Azərbaycan müharibəyə başlasın. Tonoyanın növbəti açıqlamasından sonra Azərbaycana yalnız bir şey etmək qalır: düşmənə qanla cavab verib, torpaqları azad etmək", - deyə politoloq əlavə edib.

*****

Əslində cəbhə xəttindəki son baş verənlər "sürünən müharibə"dən, gerçək müharibənin yaxınlaşmasından xəbər verir. Hər halda fakt budur ki, işğalçı tərəf əlindən gələni edir ki, Azərbaycan onu cəzalandırmaq üçün, genişmiqyaslı olmasa da, hələlik lokal hərbi əməliyyatlara başlayıb daha bir qisim əraziləri azad eləsin. Bununla da 2016-cı ilin aprelindəki kimi düşmən tərədə yeni bir çaxnaşma, daxili didişməyə, növbəti ruh düşkünlüyünə nədən olsun.

O halda Paşinyan iqtidarı, onun Tonoyan kimi bu gün döşünə döyən müdafiə naziri Sərkisyan rejiminin aqibətini təkrarlaya bilər. Əlbəttə, bu, bizi qətiyyən maraqlandırmır. Bizim üçün ən önəmlisi, torpaqlarımızı erməni qəsbkarlarından azad eləməkdir. Həm də bacardıqca tez. Bundan ötrü Bakının erməni tərəfindəki daxili çəkişmələri də nəzərə almaqla, ən əlverişli məqamı seçməsi lazımdır...



# Nikol Qarabağdakı separatçı rejimin pulunu kəsdi

**Nikol Paşinyan hökuməti Qarabağ separatçılarının maliyyə yardımı barədə xahişlərini rədd edir. Bu sensasion məlumatı erməni mediası yayıb (virtualaz.org).**

Məlumatda deyilir ki, Paşinyan Dağlıq Qarabağa maliyyə yardımının göstərilməsi üçün qondarma rejimin "təhlükəsizlik şurasının katibi", general Vitali Balasanyanın istefası şərtini irəli sürüb. Qondarma "prezident" Bako Saakyan Balasanyandan Ermənistan hakimiyyətinin tələbini yerinə yetirib istefa verməyi istəsə də, keçmiş səhra komandiri bu addımı atmaqdan imtina edib.

Xatırladaq ki, Balasanyan "dqr prezidenti" postuna iddialıdır və onunla Paşinyan arasında ciddi ixtilaf var. Məlumatda həmçinin bildirilir ki, maliyyə yardımı barədə xahişlər artıq ikinci aydır Ermənistan hökuməti tərəfindən rədd edilir. Mənbələr yaranmış vəziyyəti Ermənistan tərəfdən "dqr"ə tətbiq edilmiş "sanksiya" kimi qiymətləndirirlər.

Bundan əvvəl Paşinyan Dağlıq Qarabağın separatçı rəhbərliyini, o cümlədən Balasanyanı Qarabağda yeni müharibə qızışdırmaq planlarında ittiham etmişdi. Onun bildirdiyinə görə, həmin qüvvələr müharibəni başladıb "bəzi əraziləri verə bilər" və buna görə Ermənistan hakimiyyətini günahlandırmağı planlaşdırır.

YENİ MÜSAVAT
N 125 (7295) 12 iyun 2019

# İstefaya göndərilən prezidentdən "məni öldürmək istəyirlər" iddiası

## Moldovada ikihakimiyyətlilik- Rusiya moskvayönlü Sosialist Partiyasını dəstəklədiyini bildirir

**Moldovada siyasi böhran getdikcə dərinləşir, eyni zamanda Moskva bu keçmiş sovet respublikasında baş verənlərə daha açıq müdaxilə etməyə başlayır. Virtualaz.org xəbər verir ki, Moldovada hər biri öz legitimliyini elan etmiş iki rəqib hökumət iyunun 10-da ayrı-ayrı iclaslar keçirib.**

Rusiya bu iki hökumətdən birinin -moskvayönlü Sosialist Partiyasının avropayönlü ACUM bloku ilə koalisiyasını dəstəklədiyini bildirir. Ölkənin Konstitusiya Məhkəməsi iyunun 9-da sosialistlərin keçmiş başçısı, moskvayönlü İqor Dodonun prezidentliyi ləğv edib. Baş nazir Pavel Filip keçid prezidenti olub və dərhal da parlamenti buraxaraq sentyabr ayına növbədənkənar parlament seçkisi çağırıb.

Konstitusiya Məhkəməsinin bu barədə qərar çıxarmasına sosialistlərin və avropayönlü ACUM blokunun gözlənilmədən müttəfiqlik elan etməsi və Filipin hakim Demokratik Partiyasının hökumətinə son qoymaq niyyətini elan etməsi olub. Demokratik Partiyaya ziddiyyətli maqnat Vladimir Plaxotnyuk rəhbərlik edir.

Konstitusiya Məhkəməsi fevral ayında keçirilmiş parlament seçkisi aydın nəticə verməyəndə və qərarsız bir parlament yaranandıqdan sonra iyunun 7-də parlamentin buraxılması barədə qərar qəbul etmişdi.

Lakin iyunun 8-də parlamentdə keçirilən fövqəladə sessiyada Dodonun Sosialist Partiyasının və ACUM kimi tanınan avropameyilli blokun liderləri yeni alyans yaratdıqlarını elan ediblər.

Bu alyans Konstitusiya Məhkəməsini Konstitusiyanı təhrif etməkdə və bundan əvvəlki seçkinin nəticələrini qanunda nəzərdə tutulduğu kimi üç aydan sonra yox, 90 gündən sonra ləğv etməkdə günahlandırıb. Parlamentdəki 101 yerdən 61-nə nəzarət edən yeni alyans Maia Sandunun başçılığı altında yeni hökumətin təşkili barədə qərar qəbul edib. Sandu ACUM liderlərindən biridir.



Lakin məhkəmə bu razılaşmanı nəzərə almayıb, Dodonun prezidentliyini ləğv edib və Filipi keçid prezidenti adlandırıb. Filip növbədənkənar seçkinin sentyabrın 6-da keçiriləcəyini deyib və bildirib ki, Dodon parlamentin buraxılması barədə qərarı imzalamaqdan imtina etdiyinə görə vəzifəsindən uzaqlaşdırılıb.Moldovanın separatçı Dnestryanı bölgəsində hələ də 1000-dək qoşun saxlayan Rusiyanın Xarici İşlər Nazirliyi iyunun 10-da "yeni hökumət koalisiyasını" dəstəklədiyini bildirib.

Halbuki ABŞ, Avropa İttifaqı və NATO hər iki tərəfi təmkinə çağırmışdı. Qonşu Rumıniyanın prezidenti Klaus İohannis də "bütün siyasi qüvvələri məsuliyyətli dialoqa" çağırıb. Bununla belə Rumıniyanın xarici işlər naziri Teodor Meleskanu iyunun 10-da deyib ki, böhranın çözümü üçün yeganə yol Moldovada təkrar seçkinin keçirilməsidir.

Bununla da Buxarest Moldovada yaranmış yeni alyansı dəstəkləmədiyinə işarə edib.Filipin nazirləri iyunun 10-da hökumət binasına toplaşıblar və bina polis və hakim partiyanın ayrı-ayrı rayonlardan avtobuslarda gətirdiyi 10 min tərəfdarı tərəfindən dövrəyə alınıb.

Yeni alyanssın rəhbəri xanım Sandu deyib ki, bu siyasi böhran oliqarx Plaxotnyuk bütün dövlət strukturlarındakı monopoliyasını dayandıranadək davam edəcək.

Moldova 1991-ci ildə müstəqillik əldə edəndən bəri siyasi sabitsizlik və korrupsiya yaşayır. Yüz minlərlə moldovan imkansızlıqdan mühacirətə üz tutub.

Siyasi sabitsizliyin daha da artmasına səbəb 2014-cü ildə ölkənin bank sistemindən 1 milyard dolların yoxa çıxması olub. O vaxt bəzi siyasi qüvvələr bu hadisənin araşdırılması üçün Ləyaqət və Həqiqət Platforması elan etmişdilər.Bu platforma hazırda rəsmi hökumətə qarşı çıxan ACUM blokuna daxildir.Təşkilat bu qənaətdədir ki, bu pulun yoxa çıxmasında oliqarx Plaxotnyukun birbaşa iştirakı olub.

Son məlumatlara görə, hakim partiyanın tərəfdarları nazirlik və hökumət binalarının qarşında çadır qurublar. Onlar prezident Dodonu "satqın" adlandırıblar və deyiblər ki, Dodonun "beynəlxalq birliyi" Moldovadakı böhrana müdaxiləyə çağırması əslində Moskvaya edilən çağırışdır. İqor Dodon Rusiya tərəfindən maliyyələşdirilir və idarə olunur.

Bu arada Rusiya baş nazirinin müavini Dmitri Kozak bildirib ki, Demokratik Partiyanın lideri Plaxotnyuk iyunun 3-də ona bağlı zərf verib. Həmin zərfdə oliqarx Moskva ilə gizli sövdələşmə və ölkənin xarici siyasət kursunun tamamilə Rusiyaya tərəf çevrilməsi, habelə Dnestryanı probleminin Moldovanın federallaşması yolu ilə həlli barədə təklif var idi.

Kozak "Kommersant"a müsahibəsində deyib: "Məktubun məzmunu ilə tanış olanda biz təəccüblə öyrəndik ki, açıq-aşkar anti-Rusiya mövqeyində olan Demokratik Partiya Moldovanın xarici siyasət kursunun radikal şəkildə dəyişməsini və Rusiyaya oriyentasiyanı, Dnestryanı probleminin Moldovanın federallaşması yolu ilə həllini təklif edir. Biz Sosialistlər Partiyasına və prezident Dodona çatdırdıq ki, heç kimlə gizli sövdələşməyə getməsinlər, oliqarx Plaxotnyukun və digər qüvvələrin təklifinə məhəl qoymasınlar..."

Prezident Dodon isə iyunun 11-də bildirib ki, Demokratik Partiya onun fiziki məhvini planlaşdırır. Dodonun sözlərinə görə, bu işi "Odessa qruplaşması" vasitəsilə dağıstanlılara sifariş ediblər. "Bax, Demokratik Partiya belə işləyir...",-Dodon bildirib.

# İslandiyada Türkiyə millisinə qərəzli münasibətin sirri

## Hansı səbəbdən 350 il adada türk öldürmək qanunla icazəli olub?

**2020-ci il Avropa Çempionatının seçmə oyunlarında iştirak etmək üçün İslandiyaya gedən Türkiyə yığmasının üzləşdiyi hadisə gündəmin əsas hadisəsinə çevrilib. İyunun 10-da İslandiyaya gedən Türkiyə millisinin heyəti hava limanında lüzumsuz yerə iki saatdan artıq gözlədilib. Futbolçuların bildirdiyinə görə, hava limanında onların əşyaları uzun və diqqətli şəkildə yoxlanılıb. Daha sonra isə pasport yoxlamasında uzun zaman gözlədilib.**

Ancaq qalmaqal bununla da yekunlaşmayıb. Hava limanında gecikmə ilə bağlı media işçilərinə açıqlama verən yığma komandanın kapitanı Əmrə Bəlezoğlu təhqir olunub. İslandiyalı bir gənc tualet təmizləyən fırçanı mikrofon kimi kapitana uzadıb.

Bu hadisə Türkiyədə ciddi etiraz doğurub, hakimiyyət, müxalifət partiyaları hadisəni pisləyib. Türkiyə XİN isə Norveçdəki səfiri vasitəsilə İslandiyaya nota verib. Məlum olub ki, Türkiyə və İslandiya arasında diplomatik əlaqələr məhdududur. İki ölkə arasında diplomatik danışıqlar Danimarka və Norveç üzərindən aparılır.



Qalmaqala İslandiya hökuməti də münasibət bildirib. Hökumət təmsilçisi bildirib ki, hava limanında yoxlama və pasport qeydiyyatı normal şərtlərdə aparılıb, ləngimə olmayıb. Fırça hadisəsi isə zarafat olub, təhqir deyil. Günün sonunda isə məlum oldu ki, fırçanı tutan gənc İslandiya deyil, Belçika vətəndaşı olub. Belçikalı Corentin Siamanq bildirib ki, İslandiyaya səyahət məqsədilə gəlib və ölkəni gəzib. Hadisə zamanı isə hava limanında olub və bu zaman zarafat məqsədilə bu addımı atıb. Eyni zamanda o, əlindəkinin tualet deyil, qabyuyan fırça olduğunu iddia edib.

İki ölkə münasibətlərinin gərginləşdiyi bir vaxtda Türkiyə mətbuatı ada ölkəsi və Türkiyə ilə münasibətlərin tarixi ilə bağlı maraqlı məlumatları açıqlayıb. Ən maraqlı detal isə bu ölkə ilə Türkiyə arasındakı tarixdən gələn düşmənçilik olub. Belə ki, tarixi sənədlərə görə, 1970-ci ilə qədər İslandiyada türk öldürmək qanunla icazəli olub. 350 il davam edən bu icazənin isə amansız, həm də əcaib tarixçəsi olub.

Tarixi sənədlərə əsasən, 1627-ci ildə Murad Rəis komandanlığı altında Osmanlı donanması Şimali Avropanın bir neçə sahil dövlətlərinə hücum edib. Danimarka və Norveçin sahillərini talayan 15 gəmidən ibarət Osmanlı bayraqlı donanma daha sonra şimala doğru gedərək İslandiyaya yaxınlaşır. İslandiyada 26 gün qalan Osmanlı donanması sahil qəsəbələri Grindavik, Austfiroir və Vestmannaeyjarı qarət edir və 400 yerli sakini əsir götürür.

Bu hadisəni Vestmannaeyjar adasında ələ keçirilən və ailəsi ilə birlikdə Şimali Afrikada qul kimi satılan rahib Oluf Eigilsson qələmə alır. Rahib, həyat yoldaşı və iki oğlu əsir kimi satılır, yalnız özü Əlcəzairdən uzun və məşəqqətli əsirlikdən sonra pulla alınaraq geri qayıda bilir. Oğlanları geri qayıtmasa da, həyat yoldaşı 1637-ci ildə azad edilir. 400 islandiyalı əsir arasında ən məşhuru isə bir qadın olur. Bu qadın və islandiyalı əsirlərin hekayəsini isə rahib Avropaya döndükdən sonra qələmə alır və bu əsər Avropada böyük səs-küy yaradır.

Ancaq bu hadisə Osmanlı donanmasının İslandiyaya yeganə səfəri olmayıb. Sonrakı illərdə də, o cümlədən 1631-ci ildə də Osmanlı bayrağı altında dəniz donanması İslandiyaya hücum edir. Ali Biçin Rəis adlı admiralın rəhbərlik etdiyi donanma İslandiyadan 800 nəfəri əsir alaraq Afrikada satır.

Məhz bu səfərlərdən sonra İslandiyada türklər haqqında mənfi fikir formalaşır. Türklər haqqında "Tyrkjaranid", yəni "insan oğrusu türklər" ifadəsi yaranır. Bundan sonra isə İslandiyada türk öldürmək qanunla leqallaşdırılır. Bu qanun 350 ilə yaxın qüvvədə olsa da, heç bir zaman İslandiyada türk öldürülməyib. 1970-ci ildə isə qanun ləğv olunub.

Ancaq bu hekayənin ən qəribə tərəfi odur ki, İslandiyaya hücum edənlər türklər olmayıb. Osmanlı bayrağı altında üzən hollandiyalı dəniz quldurları olub. Məsələn, İslandiyanı Osmanlı bayrağı altında ilk dəfə soyan Murad Rəis hollandiyalı dəniz quldurு olub. Dəniz müharibələri dövründə Britaniya və Hollandiya dəniz quldurluğu fəaliyyətini qadağan etdiyi üçün hollandiyalı dəniz qulduru Jans Janzsoon van Harleem Osmanlı vətəndaşlığını və islam dinini qəbul edərək Murad Rəis adı ilə fəaliyyətini davam etdirib. Maraqlıdır ki, İslandiyaya ikinci dəniz səfərini təşkil edən kapitan Ali Biçin türk deyil, venesiyalı olub. Əsl adı isə Piccinnino olub.

Bu amansız tarixi hadisə ada xalqının yaddaşında qara zolaq olaraq keçib. Xoşbəxtlikdən bu hadisə sonrakı tarixdə təkrarlanmayıb. İslandlar qisas üçün türk öldürməyib. Amma iyunun 10-da türk futbolçulara münasibətin kökündə yalnız futbol həyəcanının olmadığı ilə bağlı şübhələr yenidən gündəmə gəlib.

**❑ Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

Yeni MÜSAVAT
N 125 (7295) 12 iyun 2019

# Vaşinqtondan Ankaraya tələb: Ya S-400, ya da F-35

## ABŞ hökuməti Ankaranı Rusiya və ABŞ silahları arasında seçim etməyə məcbur edir

**Türkiyəli hərbi pilotların ABŞ-dakı təlimləri dayandırılıb. BBC-nin məlumatına görə, bu barədə ABŞ Müdafiə Nazirliyinin sözçüsü Mayk Endryus "Reuters" agentliyinə açıqlama verib. Onun sözlərinə görə, türkiyəli pilotlar artıq Arizonadakı F-35 təlim bazasında uçuşları həyata keçirmir.**

Pentaqon sözçüsü deyib ki, Türkiyənin siyasətində dəyişiklik olmadığı təqdirdə, F-35 proqramının ləngidilməsi davam edəcək. Agentliyə açıqlama verən başqa bir amerikalı hərbi rəsmi isə ötən həftə Arizonadakı Luke həbi bazasının komandanlığının "təhlükəsizlik səbəbi ilə" ötən həftədən etibarən türkiyəli pilot və texniki heyətin təlimlərini dayandırdığını deyib. Ancaq mənbə hazırda Florida ştatının Eglin hərbi hava bazasında türkiyəli texniki heyətin F-35 təlimlərində iştirak etdiyini deyib. Agentlik onu da vurğulayıb ki, proqrama əsasən, türkiyəli pilotların Amerikadakı təlimlərin iyulun sonuna qədər davam edəcək.

Qeyd edək ki, ABŞ Müdafiə Nazirliyinin Türkiyə müdafiə naziri Hulusi Akara yazdığı və bir neçə gün əvvəl açıqlanan məktubda Türkiyənin Rusiyadan S-400 hava hücumundan müdafiə sistemləri alacağı təqdirdə, 2019-cu il iyulun 31-dən etibarən Türkiyənin planetin ən modern hərbi təyyarəsi olan F-35 layihəsindən çıxarılacağı ilə bağlı xəbərdarlıq yer alıb.

Qeyd edək ki, ötən həftə sonu mətbuata sızan məktubda bir sıra mətləblər əksini tapıb. ABŞ müdafiə nazirinin səlahiyyətlərini icra edən Patrik Şanahan tərəfindən yazıldığı iddia edilən məktubda Türkiyə S-400-lərdən imtina etməyəcəyi təqdirdə türk pilotların F-35 təliminin dayandırılacağı qeyd olunur. Eyni zamanda Rusiya ilə hərbi əməkdaşlığın, yəni konkret olaraq S-400 alınmasının Ankaranın NATO ilə əlaqələrini axsadacağı bildirilir. Ankara S-400-ləri alacağı təqdirdə ABŞ Konqresində Türkiyəyə qarşı "ABŞ-ın rəqibləri ilə sanksiyalarla mübarizə qanunu" (CAATSA) çərçivəsində sanksiyaları qəbul edə biləcəyi mövzusunda "güclü bir qətiyyət olduğu" vurğulanıb.

Türkiyə Müdafiə Nazirliyi isə qeyd olunan məktuba cavab olaraq yaydığı rəsmi açıqlamada iki ölkə arasında müdafiə və təhlükəsizlik mövzularını əhatə edən məktubda təhlükəsizlik sahəsində əməkdaşlığı mühafizə edəcək həll yolunun tapılması yönündə gözlənti yer alıb. Danışıqların davam etdirilməsinin önəmi vurğulanıb. Eyni zamanda Ankara S-400 anlaşmasının qüvvəsində olacağını fərqli məqamlar vasitəsilə dilə gətirib.



Qeyd edək ki, Türkiyə ilə F-35 təyyarələrinin istehsalçısı "Lockheed Martin" şirkəti arasında imzalanmış 9 milyard dollarlıq anlaşmaya əsasən, Türkiyə 100 ədəd F-35 təyyarəsi alacaq. Təyyarələrin təhvil-təslimi bu il baş tutmalıdır. Bu il Türkiyə həm Rusiyadan S-400 sistemlərini, həm də ABŞ-dan F-35 döyüş təyyarələri alacaq. Hazırda türkiyəli hərbçilər Rusiyada S-400 HHM sistemlərinin istifadəsi təlimlərində iştirak edir.

Ancaq Vaşinqton açıq şəkildə bəyan edir ki, Türkiyənin hər iki silahı almasına razı olmayacaq. Vaşinqton Türkiyənin bu il Rusiyadan alacağı S-400 hava hücumundan müdafiə sistemlərini F-35-lər üçün rəqib hərbi sistem olaraq görür və Türkiyənin eyni zamanda həm F-35, həm də S-400 sistemlərini almasını F-35 proqramı üçün riskli hesab edir. Amerikalıların iddiasına əsasən, S-400-lər F-35-in xüsusiyyətlərini ələ keçirə bilər, proqramını riskə ata bilər.

Türkiyə isə bu mübahisəni həll etmək üçün Vaşinqtona ortaq komissiya qurmağı təklif edib. Ancaq vaxt daraldığı üçün indi Vaşinqton Ankaraya təzyiqləri artırır.



Xatırladaq ki, ötən ay ABŞ-ın "CNBC" telekanalı Vaşinqtonun Ankaraya S-400 sistemlərindən imtina etməsi üçün iyun ayının 7-dək vaxt verdiyi haqda xəbər yayıb. Ancaq müdafiə naziri Hulusi Akar bu məlumatı təkzib edib, Ankaraya hər hansı vaxt verilmədiyini bildirib. Akar Türkiyənin yaxın aylarda S-400-ləri təhvil alacağını bildirib.

Xatırladaq ki, Türkiyə dünyanın ən məşhur silah istehsalçısı olan "Lockheed Martin" şirkətinin həyata keçirdiyi "Müştərək Hücum Proqramı" çərçivəsində 5-ci nəsil döyüş təyyarələri hesab olunan F-35 "Lightning II" layihəsinə 2002-ci ildə qoşulub. Ümumi məbləği 25 milyard olan anlaşmaya əsasən, F-35 qırıcılarının bəzi ehtiyat hissələri Türkiyədə istehsal olunacaq və Ankara 116 qırıcı alacaq. Layihənin şirkətinin saytında qeyd olunan məlumata əsasən, Türkiyə şirkətləri F-35-in ehtiyat hissələrinin istehsalından 12 milyard dollar gəlir əldə edəcək. Bu layihədə Türkiyənin ASELSAN, HAVELSAN, ROKETSAN, AYESAŞ, Alp Havacılık, Türk Havacılık və Uzay Sanayii (TUSAŞ) kimi şirkətləri iştirak edir.

Ən müasir, 5-ci nəsil döyüş təyyarələri olan F-35-lər hazırda öz kateqoriyasında birincilərdən hesab olunur. Uzunluğu 15, 4 metr, qanadlarının eni 10,7 metr olan döyüş təyyarələri 31,8 ton ağırlığındadır. Bu təyyarələr birdəfəyə 2200 kilometr uça bilir. F-35 qısa məsafəli qalxma-enmə, şaquli qalxma-enmə, radara görünməzlik texnologiyası və bağlı hissələrdən silah sistemlərinin tətbiqi kimi xüsusiyyətlərə malikdir.

Son gedişat göstərir ki, həqiqətən də Vaşinqtonun Türkiyəni F-35 proqramından çıxarmaq fikri var. Faktiki olaraq ABŞ hakimiyyəti Türkiyəni S-400 və F-35 arasında seçim etməyə məcbur edir. Türkiyə ya S-400 almağa davam etməli və F-35-lərdən imtina edib, onun rus analoqu hesab olunan SU-57 təyyarələrinə müştəri ola bilər. Görünən odur ki, ruslar da bu anlaşma üçün maraqlıdır. Ancaq Türkiyənin NATO və ABŞ kimi müttəfiqlə tamamilə üzülüşüb Rusiyaya yaxınlaşması ciddi risk yarada bilər.

İkinci variant isə Türkiyənin Rusiyanın S-400 sistemlərindən imtina edib Vaşinqtonun təklif etdiyi "Patriot" sistemləri almasıdır. Ancaq bu zaman Türkiyə Rusiyanın təzyiqləri, o cümlədən maddi təzminat tələbləri ilə üzləşə bilər. Üstəlik, Türkiyənin indi maraqlı olduğu silah sistemlərini şaxələndirmə prosesi də dayanmış ola bilər.

Ankara üçün ən ideal olan hər iki silahı almaqdır. Bunun üçün Ankara Vaşinqtona F-35-ləri S-400 riskindən qorumaq üçün təklif etdiyi ortaq komissiya qurulmalıdır. Ancaq Vaşinqton hələlik bununla razılaşmır və Ankaraya təzyiqi artırır. Türkiyə iki silahdan birini seçməli olacaq kimi görünür.

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**




## ABŞ "WikiLeaks" qurucusunun ekstradisiyasını tələb edir

### Politoloq: "Bu, amerikalıların Aya uçub torpağa gətirilməsinin Assanc tərəfindən yalan olduğunun üzə çıxarılması ilə əlaqədardır"

**"Culian Assancın vəziyyəti olduqca qəlizdir. Məsələnin məğzi ondan ibarətdir ki, o, ABŞ standartları çərçivəsində cinayət etməyib, böyük ustalıq göstərib". Bu fikirləri "Yeni Müsavat"a politoloq Tofiq Abbasov ABŞ-ın "WikiLeaks"ın qurucusu Culian Assancın ekstradisiyası üçün Böyük Britaniyaya rəsmi sorğu göndərməsi barədə danışarkən bildirib.**

Onun fikrincə, bəzən belə jurnalistlər ictimaiyyətə məxfi məlumatlar ötürməklə qaranlıq məqamların üzə çıxmasına kömək olurlar.

Ekspertin sözlərinə görə, Donald Tramp ABŞ prezidentli olana qədər az qala C.Assancı qəhrəman elan etmişdi: "O, Hillari Klintonun paxırlarını açmışdı. Hətta şadyanalıq edərək Assanca qəhrəman adı vermək mövqeyində idi. Amma indi bu məsələyə münasibət bildirməkdən imtina edir. Aydındır ki, prezident olanda ikili standartlar meydana çıxır".

Analitik hesab edir ki, ümumiyyətlə, ABŞ siyasi elitasında Assancla bağlı kompleks yaranıb: "Bu da amerikalı kosmonavtların Aya uçub torpağa gətirilməsinin Assanc tərəfindən yalan olduğunun üzə çıxarılması ilə əlaqədardır. Məlum olmuşdu ki, həmin kadrlar Hollivudda çəkilib. Ona görə də Assanc onların kefinə "soğan doğrayıb".

T.Abbasov əmin deyil ki, London "WikiLeaks" yaradıcısının ekstradisiya olunmaması üçün qətiyyətli mövqe nümayiş etdirəcək: "Assancı müdafiə edən qüvvələr ABŞ-la müqayisədə güclü deyil. Güman edirəm ki, London Assancı təhvil verəcək. Çünki bu gün Avropanın öz problemləri var və Amerika ilə hər məsələdə mövqeləri uzlaşmır. Necə ki, İran məsələsində fikirləri haçalanır. Sadəcə, biz Britaniyada baş nazirin kim olacağını gözləməliyik. Yeni baş nazir Assanc məsələsində bir çox suallara aydın cavab verəcək. Eyni zamanda onun ekstradisiyası Qərb diplomatiyası üçün bir imtahan olacaq".

Qeyd edək ki, rəsmi Vaşinqton Londonun Assancın həbsindən sonra 60 gün ərzində ekstradisiya edilməli olduğunu bildirir. Assanc 11 apreldə Londonda yerləşən Ekvador səfirliyindən çıxarılıb və həbs edilib.

Ona müxtəlif ittihamlar irəli sürən ABŞ və İsveç Assancın təhvil verilməsini istəyir. Assanc ABŞ-a göndərilsə, o, ölüm hökmü ilə üzləşə bilər.

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 125 (7295) 12 iyun 2019

# Dondurma təhlükəsi - necə qorunaq?

## AQTA: “Dondurma süd məhsulu olduğu üçün onun tərkibinə ancaq kərə yağı vurulmalıdır”



**Havalar isindikcə dondurmaya da tələbat artır. İstənilən mağazada müxtəlif çeşidlərdə, müxtəlif ölkə istehsalı olan dondurmalar satılır. Hazırda ölkə bazarında daha çox yerli, Türkiyə və Rusiya istehsalı olan dondurmalardır. Əlbəttə ki, xaricdən gətirilən dondurmalar yerli istehsala nisbətən 2 dəfəyə qədər baha qiymətə satılır.**



Bəs ləzzətlə yediyimiz dondurmaların hamısı keyfiyyət tələblərinə cavab verirmi? Əlbəttə ki, yox. Dəfələrlə satışda vaxtı keçmiş, keyfiyyəti aşağı olan dondurmalara rast gəlirik, hansı ki, insan orqanizmində fəsadlara, zəhərlənmələrə yol açır. Bəzi dondurmaların üzərində istehsal olduğu məkan və tərkibi belə qeyd edilmir. İddialara görə, həmin dondurmalar zirzəmilərdə, anti-sanitariya şəraitində hazırlanan məhsullardır.

Qeyd edək ki, son illərdə Bakının mərkəz hissələrində, xüsusən də İçərişəhər daxilində və ətrafında əyləncəli formada türk dondurmaları da satılır. Belə ki, satıcı dondurmanı alıcıya bir neçə dəqiqəlik oyun formasında - aldadaraq, zarafat edərək təqdim edir. Bu oyun daha çox uşaqları və turistləri özünə cəlb edir. Dondurmanın qiyməti də o qədər də ucuz deyil - 2 manat. Dadına gəldikdə isə çoxlu sayda alıcı var ki, bu dondurmanın həm keyfiyyətindən, həm də dadından narazılıq edir. Onun hansı şəraitdə hazırlandığı, tərkibinin nədən ibarət olduğu isə məlum deyil.

**Bəs aidiyyəti qurumlar, o cümlədən Qida Təhlükəsizliyi Agentliyi dondurmaların istehsalı ilə bağlı məsələyə necə nəzarət edir?**

Qurumdan sorğumuza cavab olaraq bildirilib ki, Qida Təhlükəsizliyi Agentliyi tərəfindən ölkədə istehsal edilən və idxal olunan qida məhsulları üzərində risk əsaslı nəzarət tədbirləri həyata keçirilir: “Bütün qida məhsulları kimi dondurmalar da risk əsaslı nəzarətə cəlb edilir. Agentlik yayın gəlişi ilə əlaqədar dondurma məhsullarının istehsalına nəzarəti gücləndirib.

Məhsullardan nümunələr götürülərək Qida Təhlükəsizliyi İnstitutunun müvafiq laboratoriyalarında müayinələrdən keçirilir. Müayinələr nəticəsində təhlükəsizlik göstəriciləri uyğun olduqda dondurmalar yerli bazarda sərbəst ticarət dövriyyəsinə daxil edilir. Eyni zamanda Qida Təhlükəsizliyi Agentliyi əhalinin sağlamlığının qorunması istiqamətində mütəmadi olaraq monitorinqlər həyata keçirir. Bakı şəhəri də daxil olmaqla, respublikanın bütün regionlarında konkret faktlara əsaslanan müraciətlər daxil olduqda dərhal araşdırma aparılır və qanunvericiliyə uyğun tədbirlər görülür. Əgər vətəndaşların dondurmalar ilə bağlı hər hansı narahatlığı olarsa, bu barədə konkret faktlarla Agentliyin 1003 “Çağrı Mərkəzi”nə zəng edib məlumat verə bilərlər".

Məlumatda qeyd edilib ki, kənar təsirlərə - istiyə, soyuğa, qoxuya daha tez məruz qaldığı üçün dondurma alarkən məhsulun qabının əzilmiş olmadığı və hermetikliyinin pozulmadığına diqqət etmək lazımdır: “Məhsulda kəsmiyəbənzər, qumabənzər köpüklü əlamətlər olmamalıdır. Dondurma satılan yerlər sanitar-gigiyenik tələblərə cavab verməli və satıcı gigiyena qaydalarına riayət etməli, təmiz iş geyimində olmalıdır. Dondurmanın üzərinə birbaşa günəş şüaları düşməməlidir. Əgər dondurma açıq havada satılırsa, soyuducular kölgə düşən yerlərdə saxlanmalıdır. Dondurma alarkən məhsulun etiketində qeyd edilmiş temperaturda saxlanmasına diqqət edilməlidir. Eyni zamanda məhsulun etiketində istehsal və son istifadə tarixi düzgün qeyd edilməlidir. Keyfiyyətli dondurmanın tərkibində indriqiyentlər mümkün qədər az və 40% süd olmalıdır.

Dondurmaların saxlanma şəraitinə də mütləq əməl edilməlidir. Belə ki, dondurmanı digər qida məhsulları ilə bir yerdə saxlamaq olmaz. Bu məhsullar mütləq etiketində qeyd edilmiş və sabit temperaturda saxlanmalıdır. Dondurmanın saxlanma temperaturu onun növündən və tərkibindəki əlavələrdən də asılıdır.

Növündən asılı olaraq topdansatış məntəqələrində xüsusi soyuducu kameralarda - 18°C-də saxlanılmalıdır.

Dondurmaların saxlanılması qüvvədə olan texniki-normativ sənədlərin tələblərinə uyğun həyata keçirilməlidir. Agentlik tərəfindən bu məhsulların saxlanılmasının qaydalara uyğun həyata keçirilməsi ilə bağlı mütəmadi olaraq monitorinqlər aparılır və qanunvericiliyin tələblərinə uyğun tədbirlər görülür".

Mütəxəssislər qeyd edir ki, keyfiyyətli dondurmanın tərkibində mütləq süd, şəkər, kərə yağı, yumurta olmalıdır. Həmçinin dad və ətirverici maddələr, stabilləşdiricilər əlavə olunur. Əgər dondurmanı dilin üstündə qoyduqda acı dad verərsə, deməli, tərkibinə kərə deyil, marqarin, bitki yağı qatılıb. Dondurma süd məhsulu olduğu üçün onun tərkibinə ancaq kərə yağı vurulmalıdır. Yalnız bu halda dondurmanı dilin üstünə qoyduqda təzə qaymaq dadı verir, yəni yararlıdır.

Dondurma alarkən daha bir məqama diqqət etmək lazımdır - onun kağızına. Əgər dondurmanın kağızı əzikdirsə, mütləq onu almaqdan çəkinmək lazımdır. Bu onu göstərir ki, dondurma bir dəfə əriyərək, yenidən dondurulub və bu da insan orqanizmi üçün təhlükəlidir və çirklənmiş məhsul hesab olunur.

Həmçinin dondurma ən yaxşı halda, 18 dərəcə temperaturda 6 ay saxlanıla bilər. Lakin əgər məhsul satışa çıxarılırsa, tez bir zamanda satılmalıdır. Uzun müddət mağazaların soyuducularında qalan dondurmaların insanlarda mədə-bağırsaq xəstəlikləri yarada biləcəyi deyilir. Bununla bərabər dondurma üzərində qumabənzər köpüklü əlamət olmamalı, üzərinə birbaşa günəş şüaları düşməməlidir.

Dondurma vazkeçilməz qida olsa da ondan da qaydasında istifadə etmək məsləhət görülür. Məsələn, ekspertlər bildirir ki, birdəfəyə 300-400 qramdan çox dondurma qəbul etdikdə, bu, insanın bədən temperaturunu aşağı sala, hətta ölümə səbəb ola bilər. Diabetli xəstələr isə şokoladlı dondurmadan imtina etməlidir.

Ədədlə satılan - xırda, çəkilib-bükülmüş dondurmalar vafli, qapaqlı polistirol və parafinləşdirilmiş karton stəkanlarda, laminirləşdirilmiş sellofan paketlərdə və müvafiq səlahiyyətli orqanlar tərəfindən icazə verilən digər qablaşdırma materiallarında buraxılmalıdır. Açıq şəkildə çəki ilə satılan dondurmalar daxildən qalaylanmış qapağı möhkəm örtülən qablarda qablaşdırılır. Qapağın altından perqament və yaxud podperqament kağızı qoyulur. Çəki ilə satılan dondurmalar daxilinə polietilen yerləşdirilmiş karton qutulara qablaşdırıla bilər.

❑ **Xalidə GƏRAY,**
**“Yeni Müsavat”**




# Vergilər Nazirliyində “təmizləmə”-24 nəfərin işi prokurorluqda

## Vergilər Nazirliyi mənimsəməyə yol vermiş əməkdaşların vergi xidmətində fəaliyyətinə xitam verib, aşkar olunmuş faktlar Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinə göndərilib

Vergilər Nazirliyi açıqlama yayıb. Açıqlamada xatırladılır ki, bir müddət əvvəl nazirlik Baş Prokurorluqla birlikdə bəzi ərazi vergilər idarələrinin fəaliyyətlərinin yoxlanması zamanı aşkar edilən qanun pozuntularına yol vermiş vergi əməkdaşları barədə cinayət işinin açıldığını bəyan edib: “Araşdırmalar zamanı bir sıra vergi əməkdaşlarının ödəniş məbləğlərini nağd şəkildə alıb mənimsəməsi müəyyən edilib. Vergilər Nazirliyi mənimsəməyə yol vermiş əməkdaşların vergi xidmətində fəaliyyətinə xitam verib, eyni zamanda aşkar olunmuş faktları toplayaraq Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinə göndərib. Bu, vergi orqanlarının hüquq-mühafizə orqanlarına təqdim etdiyi ilk hal deyil. 2018-ci ildə və 2019-cu ilin birinci rübündə korrupsiyaya qarşı mübarizə tədbirləri çərçivəsində 24 nəfər barədə 14 material hüquq-mühafizə orqanlarına təqdim edilib”.

Daxili Təhlükəsizlik Departamentinin baş direktoru Cavanşir Nuriyev bildirir ki, Vergilər Nazirliyinin struktur vahid və bölmələrinin fəaliyyətində yol verilə biləcək nöqsan və çatışmazlıqların vaxtında müəyyənləşdirilməsi üçün təhlillər, daxili audit və xidməti araşdırmalar aparılır: “Aşkar edilmiş neqativ hallar yalnız rüşvət faktları ilə məhdudlaşmır. Bəzi hallarda vergi əməkdaşlarının himayəçilik etməsi, yaxud vergidən yayınmaq üçün ayrı-ayrı şəxslərə kömək etməsi, bəzən maraq toqquşmasına yol verilməsi və vergi qanunvericiliyinin tələblərinin düzgün tətbiq olunmaması nəticəsində yaranmış risklərlə bağlı hallar qeydə alınıb. 2018-ci ildə və 2019-cu ilin birinci rübü ərzində yerli vergi strukturlarında aparılmış kompleks audit tədbirləri zamanı aşkar edilmiş müxtəlif faktlar üzrə 34 nəfərin vergi orqanlarında fəaliyyətinə xitam verilib, 11 əməkdaş vəzifədən kənarlaşdırılıb”.

**Elan**

**Ağsu rayonu Bico kənd sakini Şeydayeva Nərgiz Nuhbaba qızının adına olan torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə (JN-332A Kod-40905018) itdiyinə görə etibarsız sayılır.**

YENİ MÜSAVAT
N 125 (7295) 12 iyun 2019

# Dünyanı şoka salan inanclar

## Bu inanclar barədə oxuyanda dəhşətə gələcəksiz - barmağını kəsənlər, zülüm-zülüm ağlayanlar, planeti xilas etmək üçün özünü öldürənlər

**Son bir neçə gündə cəmiyyətdə ən çox müzakirə olunan mövzulardan biri "Qaloş piri"dir. İnsanların pirə olan inamı, sağalmaq, şəfa tapmaq üçün seyidin əşyasından mədət umması ciddi tənqidə səbəb olub. Amma bununla bağlı fərqli düşünənlər də var. Belə ki, dünyanın müxtəlif dinlərində, müxtəlif ölkələrində bir-birindən fərqli inanclar var.**





"Yeni Müsavat" onlardan bəzilərini nəzərinizə çatdırır.

**Bəşəri İnsanlar İnanışı** - Çexiyada qəribə bir inancdır. "Kontaktorlar" deyilən dünya xaricindəki mədəniyyətlərlə telepatik üsullardan istifadə olunaraq əlaqə qura bildiklərini iddia edirlər. Bu mədəniyyətlərin kosmos gəmisi dünya ətrafında dolanırmış və guya təqibçilərini başqa bir boyuta daşıyaraq onları buralardan qurtaracaqmış.

**2. Ötenazi Kilisəsi**

Amerikada formalaşan bu şəbəkənin üzvləri "Planeti xilas etmək üçün özünüzü öldürün" şəklində qəribə bir fikrə sahibdilər. Bu hərəkətə görə, insanlarla dünya üzərindəki digər canlılar arasında bir tarazlığın düzənlənməsi vacibdir.

İntihar etməyə, aborta, çoxalmamağa təşviq edilir. Hanniballıq etməkdə hər hansı problem görmürlər. İnsan yemək üçün birini öldürmürlər, amma ölü bir insanı yeyə bilirlər.

**3. Yaohnanen İnancı**

Tanna adlı adasının sakinləri Şahzadə Filipu tanrıları kimi qəbul edirlər. Hər şey şahzadə Filipin 1974-cü ildəki bir gəzinti zamanı qəbilə liderinin əlini sıxması ilə başlayıb. Qəbilə üzvləri də ondan sonra hər səhər və hər axşam ona etiqad etməyə başlayıblar.

**4. Oneida İnancı**

Nyu-Yorkda qurulan bu topluluq xrisantlıq inancı ilə başlayıb. Daha sonra isə əhvala uyğun olaraq qaydalar qoymağa başlayıblar. Bu topluluqdakı hər kəs bir-biri ilə evli imiş. Uşaq dünyaya gətirmək xaricində cinsi münasibət qadağan olunub.

**5. Aetherius**

Bir UFO təriqətidir. 1950-ci illərdə qurulub. Dünya xaricində bir kosmik rəhbərliyə inanırlar. Dinin məqsədi insanları bu dünya xaricindəki varlıqlarla işbirliyi quracaq səviyyəyə gətirməkdir. Məsihin bir uçan dairə ilə dünyaya gələcəyinə inanırlar. İnananların sayı da az deyil.

**6. Scientology Hərəkatı**

Ən çox rəğbət qazanan və mal varlığı ən yüksək olan ilginc dini hərəkatlardan biridir. Xeyli sayda məşhur adı özündə birləşdirir. Bu dinə görə, bundan 75 il əvvəl bir qalaktik rəhbərlik istəmədiyi minlərlə insanı dünyaya göndərib və bir yanardağda yandırıb. Dünyada insanların acı çəkməsinin səbəbi bu insanların ruhları imiş. Bu kosmos ruhları sərbəst buraxmaq üçün dualar edilməli imiş. Beləcə, ruhlar qurtulunca mənəvi rahatlıq gələcəkmiş.

**7. Maradona Kilisəsi**

Argentinada qurulan, əfsanəvi futbolçu Maradonaya sitayiş edən bir cəmiyyətdir. Özlərinə Diegorian adı veriblər. Maradonanın doğulduğu günü yeni il bayramı olaraq qəbul edirlər. Dini kitabları isə Maradonanın həyatından bəhs edən bir kitabdır. Maradonanı futbol oynadığı vaxtlarda öyrədən şəxsləri isə müqəddəs şəxslər kimi qəbul edirlər...

İnsanlıq tarixinin ilk günlərindən bu yana, yüzlərlə dini təriqət gəlib keçib. Hansılarsa yox olub, bəzilərinin milyardlarla inananı var. Böyük bir çoxluq ilahi dinlərə mənsub olsa da, nəzərə alınacaq xeyli qruplar da var ki, bizə çox fərqli gələn qaydaları olan təriqətlərə mənsubdurlar. Nələrə inandıqlarını öyrənəndə insan gerçəkdən də heyrət edir.



**Barmaqlarını kəsirlər - bu da bir inanc**

Belə tayfalardan biri də İndoneziyada yaşayan Dani tayfasıdır. Bu tayfada dünyasını dəyişən insanın xatirəsini əziz saxlamaq üçün qadınlar barmaqlarını kəsir. Bu, qəbilənin dini inancıdır. Barmaq kəsmək həmçinin dünyasını dəyişən əzizinin ruhuna ithaf olunmuş acı və ağrının simvoludur. Kəsilən barmaqda qanı dayandırmaq üçün isə kül və gildən istifadə olunur. Belə bir anda barmaq ana, ata və bacı kimi doğmalar tərəfindən kəsilir. Bu adət-ənənə son zamanlar ləğv olunub. Lakin qəbilənin yaşlı üzvlərində bu adətin izlərinə hələ də rast gəlmək olur.

Hindistanın Maharacta bölgəsindəki Solapurda valideynlər hər il toplanaraq körpələrini 15 metrlik mənzilin damından aşağı atır. Körpələr digər kəndlilərin əllərində tutduğu yerə dəyməyən şalın üzərinə düşür. Valideynlər bunu övladlarının sağlam, uzun ömür keçirəcəklərinə inandıqlarını göstərmək üçün edirlər. Maraqlıdır ki, ayin müsəlmanlar tərəfindən icra edilir, lakin bəzi hindli ailələr də mərasimə qatılırlar.

Braziliyanın Amazon bölgəsində yaşayan Satere-Mave sakinləri oğlan uşaqları üçün ağrı verən ənənəyə malikdirlər. Oğlan uşağı, "kişi" olmaq üçün əlini içində qara qarışqaların olduğu əlcəyə salıb on dəqiqə boyunca əlini orada tutmaq məcburiyyətindədir. Qarışqanın sancma anında verdiyi ağrı təbiətdəki ən acı verici hisslərdəndir. Kişiliyə keçmə yaşına gələn şəxs bunu iyirmi dəfə, özü də müəyyən bir müddət boyunca təkrarlamalıdır.

Filippinin Saqada nahiyəsində əhəng daşlarından ibarət olan mağaralar bölgədəki ölülərin evləri olaraq qəbul edilir. Bir çox insan mağaralara basdırılarkən - uzun zamandır icra olunan adətə görə - tabutlar ölünün basdırıldığı mağaranın xaricinə asılır.

Yanamamö - Venesuela və Braziliyada rast gəlinən böyük bir qəbilədir. Müasir həyat onlara heç bir şəkildə sirayət etməyib və hələ də qədim ənənələrini qoruyub saxlayırlar. Yanamamö dini ənənələrinə görə, ölülərin külləri və sümükləri də məhv edilməlidir. Bu səbəbdən qəbilənin nümayəndəsi dünyasını tərk etdikdə cansız bədəni yandırılır, bədənin heç bir parçasının qalmaması şərtilə cəsədin külləri olan küp yox edilir.

Keniya və Tanzaniyada yaşayan etnik afrikalı qrupa aid olan qəribə ənənəyə görə isə, salamlaşma zamanı tüpürcəkdən istifadə olunur. Burada həmçinin körpə doğulduğu zaman Masai qəbiləsinin kişiləri körpənin üzərinə tüpürərək pis ruhların ona yaxınlaşmasının qarşısını alırlar. Qəbilə döyüşçüsü yaşlı üzvləri salamlayarkən yaşlı adamın əlini sıxmazdan öncə onun ovucuna tüpürməlidir. Bu, hörmət əlaməti kimi qəbul edilir.

Yaxın dövrdə Vatikan və antik Roma qəbiristanlıqlarında aparılan qazıntılar zamanı uzun zamandan bəri unudulan ənənə ortaya çıxıb: Romanlar ölülərlə birlikdə yemək yeyir və hətta onları bəsləyirlər. Məzarların bir çoxunda xaricdən ölünün bədəninə uzanan boru var. Bu boru ilə ölüyə şərab, bal və digər yeməklər verilirmiş.

Antik romalılar tez-tez ölülərinin məzarının yanında gəzinti edərlərmiş. Bunun səbəbi isə ölən adamın da onlarla birlikdə qidalandığını ifadə etmək imiş. Deyilənlərə görə, Roma qəbirlərində olan borulara bənzər cisimlər İngiltərədə də mövcud olub.

Yaponiya və Rusiyanın müxtəlif ərazilərində mövcud olan yerli qəbilələr- ainular (bir zamanlar etnik azlığı animist - canlıçılıq) dini inancları ilə diqqət cəlb edirlər. Onlar dini ayinlərinin icrasını ayıları öldürərək həyata keçirirlər. Ayin üçün mağarasında qış yuxusuna gedən bir ana ayı seçilir. Balalar iki il boyunca qəfəsdə tutulur və 2 il tamam olanda ainular tərəfindən dindarlıqlarını göstərmək məqsədilə "dini ənənələrə uyğun bir şəkildə" vəhşicəsinə öldürülürlər. Kəndlilər ayını kəsdikdən sonra qanını içib ətini yeyirlər. Maraqlıdır ki, ainular ayıların tanrı olduğuna və bu ayini onları müqəddəsləşdirmək üçün etdiklərinə inanırlar. Yaponiyada bu ayin qadağan olsa belə, bəzi yerlərdə hələ də icra olunur.

**❑ Sevinc TELMANQIZI, "Yeni Müsavat"**







# YENİ MÜSAVAT

Son səhifə

N 125 (7295) 12 iyun 2019


# Taksi sürücüsü artistlik etdi, işdən çıxarıldı




Avstraliyada bir qadın aşağı tarifə görə ürək tutması imitasiyası yaradan taksi sürücüsünü çəkib. O, bu kadrları televerilişlərdən birinə təqdim edib. Adı açıqlanmayan sərnişin bildirib ki, taksi sürücüsü onu Sidnet aeroportundan şəhərkənarı Annandeylə aparmaq istəməyib. Onun sözlərinə görə, çağırış əsasında gələn sürücü 10 kilometrlik məsafəni aşağı tarifə görə getmək istəməyib. Videodan görünür ki, sürücü ağaca dirsəklənir, bir əli ilə də ürəyini tutur. “Madam, mən sizi aparmayacam. Çünki özümü pis hiss edirəm” - bunu da sürücü deyib. Amma qadın taksi sürücüsünə inanmayıb və onun sözlərini yada salıb: “Axı siz demişdiz ki, sayğacı bağlamaq istəyirsiniz. Çünki bu məsafəyə görə daha çox pul qazanmaq istəyirsiz. Bunu eşidən sürücü dizləri üstünə çökür. Bu zaman qadın belə deyir: ”Sizin bu hərəkətiniz Oskar mükafatına layiqdir".

Tezliklə sürücünü işdən çıxarıblar. Kampaniyanın qaydalarına görə, taksi sürücüsü iş saatı zamanı sifarişdən bu formada imtina edə bilməz.



## İstirahət günləri iki saat artıq yatanların... çəkisi artır

İstirahət günləri normadan artıq yatmaq, bəlkə də, insanların ən zəif yerlərindən biridir. Alimlər artıq yuxunun piylənməyə səbəb olduğunu bildirirlər. Hər hansı şəxs nə qədər çox yatırsa, bir o qədər də piylənmə ilə əlaqədar xəstəlik lər qazanır.

Mütəxəssislərin rəyinə görə, iş və istirahət günlərindəki yuxu müddətinin fərqi bədən üçün təhlükə törədir. Onlar bunu 800-dən çox könüllü insan üzərində araşdıraraq sübut ediblər. Əvvəlcə könüllülərin çəkisi, boyu ölçülüb, onlardan qan nümunələri götürülüb. Sonra könüllülər arasında neçə saat yatmaları haqqında sorğu aparılıb və maraqlı nəticələr alınıb.

Məlum olub ki, adi iş günü ilə müqayisədə istirahət günü iki saat artıq yatanların çəkiləri artır və onlarda diabet xəstəliyinə meyllik yaranır. Mütəxəssislər vəziyyətdən çıxış yolu üçün fəal həyat sürməyi, səhər tezdən idman zallarına getməyi məsləhət bilirlər.

# Gəlin bəyi vurdu, məhkəməyə verildi



**Böyük Britaniyada qısqanc gəlin yenicə evləndiyi oğlanın üzünə şərab qədəhi atıb və onu məhkəməyə verib. Bu barədə lenta.ru saytı xəbər verib. İnsident 27 apreldə Oldem şəhərində baş verib. 37 yaşlı Natali Propet dörd ildir münasibətdə olduğu Arçi Barkerlə spirtli içki içirdi. Cütlük gənc oğlanın digər qadınlarla ünsiyyətinə görə dalaşmağa başlayıb və münasibətləri korlanıb.**

Əsəbləşmiş Propet bəyin burnuna zərbə endirib, ardınca da üzünə bir qədəh şərab töküb. Nəticədə Barkerdə bu zərbədən iz qalıb. Qonşular səs-küy eşidiblər və dərhal bu faktla bağlı polis çağırıblar.

Hadisə yerinə gələn polislər qanlar içində olan bəyi və onun qorxudan rəngi ağarmış gəlinini görüblər. Sonuncu polislər gələndə ağlayırdı.

“Mən onun üzünə qədəh atdım”, Propet etiraf edib. “Mən hələ də inana bilmirəm ki, bu hərəkəti necə etdim” deyən gəlindən ifadə alınıb. Polislər Barkerdən rəsmi ərizə almaq istəsələr də, o, sevdiyi qadından şikayətçi olmayıb. Qadına qarşı cinayət işi açılıb. Kişi verdiyi ifadəsində bildirib ki, sevdiyi qadın gerçəkdən də ona sağ əli ilə vurub və sol əli ilə şərab dolu qədəhlə zərbə endirib: “Bu, qəfil bir hücum idi. Amma sevdiyim qadın baş verənlərlə bağlı peşmandır və təəssüf hissi keçirir”.

Məhkəmə isə qadına 180 saat icbari iş verib. Hakim bildirib ki, məhkəmə onun peşman olmasını nəzərə alır. Üstəlik, 4 uşaq anası olduğu üçün ona güzəştlər də tətbiq edir.






**QOÇ** - Peşə fəaliyyətinizdə əsaslı dönüş etmək istəyirsinizsə, bu təqvimdən maksimum yararlanın. Hər bir şansdan, hər bir fürsətdən istifadə edin. Öz qərarlarınızda qətiyyətli olun.



**BUĞA** - İş yerində, həmkar və rəhbərlərinizlə mübahisələriniz ola bilər. Bunun qarşısını almaq üçün ən xırda konfliktlərə belə getməməlisiniz. Səhhətinizin qayğısına qalın, iştahlı olun.



**ƏKİZLƏR** - Həlledici məqamlarda təcrübəli adamlarla məsləhətləşməməyiniz yalnız zərərinizədir. Xarakterinizdə olan bu xüsusiyyəti aradan götürün. İndi lovğalıq və özündənrazılıq predmetləri keçmir.



**XƏRÇƏNG** - Daxili gərginliyiniz nəzərdə tutduğunuz başlıca planların icrasını ləngidir. Çalışın ki, bəd fikirlərdən uzaqlaşıb təbiət qoynundan enerji alasınız. Ziyarətgaha da getmək olar.



**ŞİR** - Maliyyə imkanlarının aşağı səviyyədə olmasına baxmayaraq iştirakçısı olduğunuz proseslər ovqatınızı yüksəldəcək. Ələlxüsus da sevgi münasibətlərində hər şey ürəyinizcə olacaq.



**QIZ** - Yaxşı olar ki, ixtiyarınızda olan bu günü bütünlüklə əyləncə və istirahətə həsr edəsiniz. Sevgi amilini daha çox qabardın. Axşam gözləmədiyiniz istiqamətdən sürprizlərlə rastlaşa bilərsiniz.



**TƏRƏZİ** - Astroloji göstəricilər yeni əlaqələrə başlamaq üçün canfəşanlıq göstərməyinizi məsləhət görür. Nahardan sonra isə şəxsi büdcənizdə irəliləyişlər gözlənilir. Uzaq yola çıxmayın.



**ƏQRƏB** - Son günlər çox əsəbi olmusunuz. Səhhətinizin passivliyi də məhz bu səbəbdən irəli gəlir. Lakin özünüzü qorumaqla bir neçə uğura yiyələnə bilərsiniz: məsələn, yeni işlə bağlı.



**OXATAN** - Yalnız ailə-sevgi münasibətlərində uğurlu anlarla rastlaşa bilərsiniz. Qalan məsələlərdə, ələlxüsus da işgüzar sövdələşmələrdə isə vəziyyət o qədər də səmərəli olmayacaq.



**OĞLAQ** - İş üslubunda köklü dəyişikliklər etmək fikriniz olsa da, tərəddüdləriniz sizə mane olur. Amma ulduzlar əsl məqamın məhz indi yetişdiyini bildirir. Yersiz riskdən uzaq olun.



**SUTÖKƏN** - Səhər saatlarında azacıq gərginlik olsa da, ümumən uğurlu bir gün yaşayacaqsınız. Hər addımda xoş ovqat qazanmaq üçün qarşılıqlı münasibətlərdə mülayim davranın. Pul məsələlərində ehtiyatlı olun.



**BALIQLAR** - Bəxtinizdə sürprizlə dolu bir təqvim durur. Odur ki, bədbin fikirləri başınızdan çıxarın. Qara pişikdən, tək səbirdən qorxmayın. Özünüzü kamil insan kimi aparın ki, uğurlarınız artsın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Arıqlama xərçəngin simptomu ola bilər



Bəzən insanlar istəmədən və bunun üçün heç bir cəhd etmədən (pəhriz, idman və s.) arıqlamağa başlayır. Bir çox hallarda belə arıqlama çox tez gedir, insan sanki “əriyir”. Bu, çox təhlükəli haldır. Belə kəskin arıqlama bir çox ağır xəstəliklərin əlaməti ola bilər. Bədən çəkisinin kəskin azalması onkoloji (xərçəng) xəstəliyin əlaməti ola bilər. Xüsusilə belə kəskin arıqlama mədə-bağırsaq sistemi, mədəaltı vəzi və qaraciyərin onkoloji xəstəlikləri zamanı baş verir. Buna “kaxeksiya” deyilir. Arıqlama xərçəngin ilk görünən simptomu kimi meydana çıxa bilər.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 3.190